# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 100 (6300) 9 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "EU Reporter" nəşri müharibədən sonrakı ilk 200 gün ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən yazıb

Avropa İttifaqının nüfuzlu "EU Reporter" nəşri Tori MakDonaldın "2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra Azərbaycanda cərəyan edən əsas proseslər" sərlövhəli məqaləsini dərc edib. AZƏRTAC xəbər...




Bax 2

## 9 iyun - Azərbaycanın inkişafının başlanğıc tarixi



Bax 3



## ADA Universitetində YAP Gənclər Birliyinin fəal üzvləri ilə görüş keçirilib

İyunun 8-də ADA Universitetində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin fəal üzvləri...

Bax 5

## Aleksey Naumov: "Həqiqəti göstərmək, obyektiv informasiyanı çatdırmaq istəyən jurnalistlərin həlak olması dəhşətdir"

Cənubi Qafqazda baş verən son hadisələr dünya ictimaiyyətinin bu regiona daha çox diqqət ayırmasının zəruriliyini aktuallaşdırdı. Elə düşünmək lazım deyil ki, Azərbaycan öz torpaqlarını geri almaqla...



Bax 2

## "Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər"



Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər. Bu, bizim xalqımızın salnaməsidir. Onlar çox gərəkli iş görürdülər, azad olunmuş əraziləri qarış-qarış gəzərək erməni vandallarının törətdikləri dağıntıları, cinayətləri...

Bax 4

## Ermənistan şərtləri pozur - Azərbaycanın cavabı necə olacaq?




## Erməni faşizminin azad sözə, mediaya qarşı terroru

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bütün müsahibələrində, beynəlxalq görüşlərdə dəfələrlə qeyd edib ki, minalanmış sahələrin...




Bax 6

## Ermənistanın "mina siyasəti" "Haber Global"da




"Haber Global" erməni polkovnik Koryun Qumaşyanın Laçın və Kəlbəcər istiqamətində törədilmiş təxribatla bağlı etirafı barədə videomaterial hazırlayıb. SİA xəbər verir ki, ermənilər...

Bax 4

## ABŞ demokratlarından Azərbaycana qarşı növbəti təhdid




Bax 7

## Toylara olan qadağa götürülür?



Bax 10

## Azərbaycan-Ermənistan sülh müqaviləsinin imzalanmasına kim mane olur?



Bax 15

# "EU Reporter" nəşri müharibədən sonrakı ilk 200 gün ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən yazıb

**Avropa İttifaqının nüfuzlu "EU Reporter" nəşri Tori MakDonaldın "2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra Azərbaycanda cərəyan edən əsas proseslər" sərlövhəli məqaləsini dərc edib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Qarabağ bölgəsinin 30 illik işğalına son qoyan üçtərəfli Bəyanatın imzalanmasından 200 gün keçməsindən söhbət açılır.**

Müəllif qeyd edir ki, indi Bakı dağıdılmış ucsuz-bucaqsız ərazilərin bərpası üzrə ambisiyalı proqrama start verib. Sıfırdan başlanacaq şəhərsalma layihələri doğma yurdlarını tərk etməyə məcbur olan və son bir neçə onillik ərzində ağır şəraitdə yaşayan insanların oraya qayıtmalarına kömək olacaq.

Məqalədə müharibədən sonrakı ilk 200 gün ərzində Azərbaycanın əldə etdiyi başlıca nailiyyətlərdən bəhs edilir. Proqrama ərazilərin minalardan təmizlənməsi, "ağıllı kəndlər"in yaradılması, bərpaolunan enerji mənbələrindən istifadə, mədəniyyət abidələrinə münasibətdə törədilmiş vandalizm aktlarının ifşa olunması və bir sıra başqa məsələlər daxildir.




# Aleksey Naumov: "Həqiqəti göstərmək, obyektiv informasiyanı çatdırmaq istəyən jurnalistlərin həlak olması dəhşətdir"

**Cənubi Qafqazda baş verən son hadisələr dünya ictimaiyyətinin bu regiona daha çox diqqət ayırmasının zəruriliyini aktuallaşdırdı. Elə düşünmək lazım deyil ki, Azərbaycan öz torpaqlarını geri almaqla münaqişənin tarixi bitdi. Görünür, bir çox dövlətlərin, dövlətlərarası təşkilatların, o cümlədən Minsk qrupunun diplomatik səyləri tələb olunur. Minsk qrupu ilə fəaliyyətə başlamaq yaxşı olardı. Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində "Kommersant" qəzetinin şərhçisi Aleksey Naumov bildirib.**



A.Naumov Azərbaycanın Kəlbəcər rayonunda həlak olan jurnalistlərin ailələrinə başsağlığı verərək deyib: "Həqiqəti göstərmək, obyektiv informasiyanı çatdırmaq istəyən jurnalistlərin həlak olması həmişə dəhşətdir. Onlar münaqişə tərəflərindən birinin öz vəzifələrini yerinə yetirməməsi səbəbindən əziyyət çəkməyə məcburdurlar. Ermənistan ya minalanmış ərazilərin xəritələrinin olmadığını etiraf etməli, ya da bu vəziyyətin düzəlməsi üzrə konstruktiv işə başlamalıdır. Cəmiyyətin, dövlətlərin və dövlətlərarası təşkilatların diqqətini bu məsələyə çəkmək lazımdır. İmkan verilməməlidir ki, dünya xəritəsində Cənubi Qafqazın yaralarının hələ də qanaması yaddan çıxarılsın".

Jurnalist ümidvar olduğunu bildirib ki, illər sonra bu region yenidən inkişaf edəcək. O deyib: "Qarabağın müharibə, dağıntılar, problemlər diyarına deyil, yenidən bülbüllər diyarına çevrilməsini istərdim".

Cənubi Qafqazda qarşılıqlı iqtisadi fəaliyyət mövzusuna toxunan A.Naumov vurğulayıb ki, siyasi nizamlama həmişə iqtisadi əməkdaşlıqla sıx bağlıdır. O deyib: "İqtisadiyyat Qafqazda sülhü bərpa edə biləcək əsas amildir. Qarşılıqlı iqtisadi fəaliyyəti təşviq etmək lazımdır. Bəzən, tərəflərin hər hansı birindən olan siyasətçilər bunu əngəl yaratdıqları halda, xarici aktorlar, məsələn, Rusiya öz tərəfdaşlarına təsir göstərə bilər. Çünki iqtisadi kooperasiya hamıya sərfəlidir. Cənubi Qafqazda iqtisadi əlaqələrin bərpası Ermənistana da, Azərbaycana da, Rusiyaya da, bütün xarici aktorlara da sərfəlidir. Sülhə qarşı ən qorxulu sabotaj, - hansı ki, bunu indi yaratmaq olar, - məhz iqtisadi inteqrasiyanın sabotajıdır. Çünki o, həmişə xalqları və ölkələri sülhə məcbur edir. Cənubi Qafqazda sülhün yaranması iqtisadiyyata əsaslanır ki, bu da çox cəhətdən Rusiyaya da sərfəlidir".

# Mixail Qusman: "Minalanmış sahələrin xəritələrini almaq üçün nə mümkündürsə etmək lazımdır"

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Azərbaycanın Kəlbəcər rayonunda minaya düşərək həlak olmuş jurnalistlərin ailələrinə başsağlığı verib.



AZƏRTAC xəbər verir ki, M.Qusman "Moskva-Baku" portalına müsahibəsində deyib: "Təəssüf ki, jurnalist peşəsi ilbəil daha təhlükəli olur. Dünyanın ən müxtəlif yerlərindəki "qaynar" nöqtələrdə jurnalistlər tez-tez həlak olur. Lakin olduqca dinc peşə nümayəndələri olan jurnalistlərin müharibə başa çatandan, münaqişə bitəndən sonra həlak olması xüsusilə faciəvi, dözülməz dərəcədə ağrılı təsir bağışlayır. Mənim iki azərbaycanlı jurnalist həmkarım Azərbaycanın Kəlbəcər rayonunda minaya düşərək faciəvi şəkildə həlak olub. Onlardan biri uzun illər boyu TASS informasiya agentliyinin tərəfdaşı olan AZƏRTAC agentliyində çalışırdı. Bu jurnalistlər oraya sırf peşəkar işlərini yerinə yetirmək, həmin diyarda bu gün baş verən hadisələr barədə söhbət açmaq üçün getmişdilər".

Rusiyalı jurnalist qeyd edib ki, TASS Agentliyi və onun baş direktoru Sergey Mixaylov Agentliyin bütün kollektivi adından həlak olmuş jurnalistlərin ailələrinə dərin hüznlə başsağlığı veriblər.

Jurnalistlər həlak olan günün səhəri Avropa İnformasiya Agentlikləri Alyansının görüşü təşkil edilib. Həmin görüşdə Avropanın bütün aparıcı informasiya agentliklərinin rəhbərləri iştirak edirdi. Görüş iştirakçıları azərbaycanlı jurnalistlərin həlak olmasına görə dərindən kədərləndiklərini və onlarla həmrəy olduqlarını bildiriblər.

Mixail Qusman deyib: "Əlbəttə, dinc dövrdə insanların, jurnalistlərin ötən müharibənin qalıqları olan minalara düşərək həlak olması faktı ilə barışmaq mümkün deyil. Bununla əlaqədar, əlbəttə, minalanmış sahələrin xəritələrini əldə etmək, minaların zərərsizləşdirilməsi, belə partlayışlar nəticəsində dinc insanların, o cümlədən jurnalistlərin heç vaxt həlak olmaması üçün nə mümkündürsə etmək lazımdır".



# Sergey Markov: "Qarabağda ərazilərin minalardan təmizlənməsi təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin işi olmalıdır"

**Dinc sakinlərin, xüsusən də jurnalistlərin həlak olması dəhşətdir. Bu faciənin təqsirkarı - minalanmış sahələrin xəritəsini hələ də təqdim etməyən erməni tərəfidir.**

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bəyan edib. Onun fikrincə, Ermənistanın minalanmış sahələrin xəritəsini verməkdən imtina etmək üçün iki versiya mövcuddur. Ekspert deyib: "Birinci versiya odur ki, xəritə var, lakin onlar bu xəritəni təqdim etmirlər, çünki bununla bağlı alver etmək istəyirlər. İkinci versiya belədir ki, minalanmış sahələrin xəritəsi yoxdur, çünki onlar bu ərazilərdən çıxanda həmin anda total minalanma həyata keçirildi. Əgər onlar minaları bu torpaqları tərk etdikləri zaman basdırıblarsa, o halda bu, vəhşilikdir və 10 noyabr 2020-ci il tarixli Bəyanatın kobud surətdə pozulmasıdır".

S.Markov vurğulayıb ki, Azərbaycan 10 noyabr tarixli Bəyanatın ermənilər tərəfindən sistematik surətdə pozulması barədə sərt şəkildə məsələ qaldırmağa haqlıdır. Çünki bu pozuntular nəticəsində dinc sakinlər, jurnalistlər, hərbi qulluqçular həlak olur. Rusiyalı politoloq deyib: "Bu məsələ BMT Təhlükəsizlik Şurası səviyyəsində qaldırılmalıdır. Lakin bunun üçün BMT Təhlükəsizlik Şurası 10 noyabr 2020-ci il tarixli Bəyanatı dəstəkləməlidir. Təəssüf ki, ermənipərəst mövqe nümayiş etdirən Fransa burada ciddi problem yaradır. BMT minalanmış ərazilərin təmizlənməsinə böyük diqqət ayırır. Dünyada xüsusən də piyada əleyhinə minalardan böyük sayda insan həlak olur. Buna görə də minaların zərərsizləşdirilməsinə kömək üçün BMT-də böyük infrastruktur yaradılıb. Qarabağda ərazilərin minalardan təmizlənməsi təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin işi olmalıdır".

Politoloqun sözlərinə görə, Ermənistan əhalisi Azərbaycan ilə normal iqtisadi əlaqələrin qurulmasına səy göstərir. O deyib: "Mən erməni həmkarlarımla ünsiyyətdə olmuşam. Onlar Bakıya səfər edə biləcəyi vaxtı arzulayırlar".

# 9 iyun - Azərbaycanın inkişafının başlanğıc tarixi



**Beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınan müstəqil Azərbaycanın keçdiyi uğurlu inkişaf yolu Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu.**

Müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın - Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu qeyd etməliyik. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünkü dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi. Xalqımızı nicata aparan yol - 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Məlumdur ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı.

Sonrakı hadisələr daha müsbət məcralara yönəldi, ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının güclənməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik Azərbaycanın suveren dövlət kimi mövcud olması, tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması və vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Ötən on yeddi il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Son 17 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə dərs verdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, on yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm: "Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi."

Xalq-iqtidar birliyi Azərbaycanı zəfərə, qələbəyə apardı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib.

***Zümrüd BAYRAMOVA***

# "Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər"



Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər. Bu, bizim xalqımızın salnaməsidir. Onlar çox gərəkli iş görürdülər, azad olunmuş əraziləri qarış-qarış gəzərək erməni vandallarının törətdikləri dağıntıları, cinayətləri sənədləşdirirdilər. Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək həlak olan AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovla vida mərasimində söyləyib.

Şəhid jurnalistlərə Allahdan rəhmət diləyən Hikmət Hacıyev deyib: "Mən Prezident İlham Əliyevin tapşırığına əsasən buradayam. İlk növbədə cənab Prezidentin, hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın adından mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Həlak olan jurnalistlər xidməti vəzifələrini yerinə yetirərkən mənfur ermənilər tərəfindən qoyulmuş minanın qurbanı olublar. Onların gördüyü işlərin böyük dəyəri var. Onlar bütün kəndlərimizi, şəhərlərimizi addım-addım gəzərək ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi vəhşilikləri sənədləşdirirdilər. Bu iş çox dəyərlidir, bu gün üçün də, yüzilliklər sonra da vacibdir. AZƏRTAC tərəfindən, Azərbaycan Televiziyası tərəfindən ezamiyyəti dəyişdirmək barədə müraciətin olmasına baxmayaraq onlar geri dönmək istəmirdilər. Bu işi böyük əzmlə, fədakarlıqla, həvəslə yerinə yetirirdilər. Təəssüf ki, mənfur ermənilər tərəfindən xaincəsinə basdırılmış minanın qurbanı oldular. Bu, eyni zamanda, Azərbaycan jurnalistikası və mediası üçün böyük itkidir".

Prezidentin köməkçisi qeyd edib ki, müharibə dövründə Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan əsgərləri ilə çiyin-çiyinə Azərbaycan jurnalistlərinin, Azərbaycan mediasının da rəşadətinin şahidi olduq. "Onlar ön cəbhədə idilər. Ermənilərin vəhşiliyini əks etdirən foto və videoları bütün dünya ictimaiyyətinə çatdırırdılar. Kəlbəcərdə həlak olan qardaşlarımızın gördüyü iş də bu gərəkli fəaliyyətin tərkib hissəsi idi. Faciə ilə bağlı bütün beynəlxalq təşkilatlara müraciət olunub, bu vəhşilik dünya ictimaiyyəti tərəfindən qınanmalıdır", - deyə Hikmət Hacıyev vurğulayıb.

# Fransanın "Mediapart" portalı minaya düşərək həlak olmuş azərbaycanlı jurnalistlərdən yazıb



Fransanın "Mediapart" portalında "Azərbaycanda iki jurnalist minaya düşərək həlak olub" adlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə fransız mətbuat orqanlarının jurnalistlərin minaya düşərək ölməsinə laqeydlik göstərməsindən yazılıb. Müəllif Alain Rumestanq qeyd edib ki, Fransanın mətbuat orqanları Formula 1 Azərbaycan Qran-Prisinə geniş yer veriblər. Hətta cari ilin oktyabrına planlaşdırılmış, lakin COVID-19 pandemiyasının yaratdığı təhlükəsizlik və maddi-texniki problemlərə görə təxirə salınan Sinqapur Qran-Prisinə də mətbuatda yer olub. Ancaq iyunun 4-də Kəlbəcər rayonu ərazisində Ermənistan tərəfindən yerləşdirilmiş tank əleyhinə minaya düşərək həlak olmuş iki azərbaycanlı jurnalist - Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovla bağlı mətbuat orqanlarının susqunluğuna təəssüfünü bildirib. Fransız jurnalistlərin öz həmkarlarının ölümünə susmasına acıyıb.

A.Rumestanq bildirib ki, Kəlbəcər rayonu 30 il ərzində Ermənistanın işğalı altında olub. Ötən ilin noyabrında iki ölkə arasında münaqişəyə son qoyulub və Kəlbəcər azad edilib. Jurnalistlərin düşdüyü mina isə işğal müddətində ermənilər tərəfindən yerləşdirilib. Bu gün Ermənistan mina xəritələrini verməkdən imtina edir və nəticədə günahsız insanlar həlak olur.

Müəllif qeyd edib ki, 30 il işğal dövründə BMT-nin qəbul edilmiş müxtəlif bəyanat və qətnamələri Ermənistanın silahlı qüvvələrinin qeyri-qanuni işğal etdiyi Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edirdi.

"Jurnalistlərin olduğu avtobus partlayıcı maddələr yerləşdirilmiş yoldan keçib. Partlayış nəticəsində peşə fəaliyyətini yerinə yetirən günahsız jurnalistlər həlak olub. Bu ölümdən yayınmaq mümkün idi", - deyən müəllif Ermənistanın mina xəritələrini verməkdən imtina etməsinin nəticəsində günahsız insanların həlak olduğunu diqqətə çatdırıb.




## Ermənistanın "mina siyasəti" "Haber Global"da

"Haber Global" erməni polkovnik Koryun Qumaşyanın Laçın və Kəlbəcər istiqamətində törədilmiş təxribatla bağlı etiraf barədə videomaterial hazırlayıb. SİA xəbər verir ki, ermənilər 17 yük maşını minanı Azərbaycan ərazisində basdırdıqlarını etiraf ediblər. Üstəlik, düşmən minalanmış ərazilərin xəritələrini verməmək üçün Azərbaycana şərt qoyur.




# UNESCO-nun Baş direktoru: Sirac Abışov və Məhərrəm İbrahimovun faciəli ölümündən şok oldum




UNESCO-nun Baş direktoru Audrey Azoulay iyunun 4-də Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlər Sirac Abışov və Məhərrəm İbrahimovun ölümünü pisləyib. Bu barədə UNESCO-nun saytında bildirilib. "Sirac Abışov və Məhərrəm İbrahimovun faciəli ölümlərindən şok oldum. Şəxsi təhlükəsizlik riski olmadan jurnalistlər öz peşələrini yerinə yetirə bilməlidirlər", - deyə UNESCO-nun baş direktoru vurğulayıb.

Xatırladaq ki, iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb. Nəticədə "Azərtac"ın müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, 4 nəfər yaralanıb.

# İsrailli ekspert: "Susqunluğa son qoymaq üçün daha nə qədər günahsız azərbaycanlı həyatını itirməlidir?"



**İyunun 4-də sarsıdıcı və dəhşətli xəbəri aldım və şok yaşadım. Mənim həmkarlarım - Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimov Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak oldular. Bu dəhşətli hadisə bu ərazinin ziyarət edən hər bir jurnalistin başına gələ bilər. AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində siyasi ekspert Arye Qut deyib.**

Siyasi ekspert bildirib ki, Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular nəticəsində müharibə qurtardıqdan sonra 120-dən çox Azərbaycan vətəndaşı həlak olub və ya yaralanıb. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə təxminən 100 milyon kvadratmetr sahədə 35 mindən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir və minalanmış ərazilərin xəritələrinin verilməsi ilə bağlı dəfələrlə xəbərdarlıq edilməsinə rəğmən, Ermənistan məqsədyönlü şəkildə bundan imtina edir.

"Mən düz bir ay əvvəl "İsrael Hayom"un jurnalisti ilə Ağdam, Füzuli, Zəngilan və Cəbrayıl rayonlarında oldum. İlk andan hiss etmişdim ki, sanki bu əraziyə dəhşətli vəba gəlib. Azad edilmiş ərazilərdə demək olar bir dənə də salamat ev, uşaq bağçası və ya məktəb, kitabxana və muzey qalmayıb. İşğalçı ermənilər Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan kimi şəhərləri yerlə-yeksan edərək, qarətçilik, neonasizm və vandalizm ilə məşğul olublar. Hətta ağacları da məhv ediblər", - deyə A.Qut vurğulayıb.

O bildirib ki, digər mövzu minalar məsələsi idi. Bu əraziləri ziyarət edən zaman bizə deyirdilər ki, sağa getməyin, sola getməyin, bu ərazilər çox təhlükəlidir. Təkcə Ağdam yox, Füzuli, Cəbrayıl və Zəngilan da erməni işğalı nəticəsində kabus və minalanmış şəhərlərə çevrilib, məhv edilib. Dağıntıların miqyası, ermənilərin qəddarlığı, faşizmi, neonasizmi və vandalizmi insanı dəhşətə gətirir. Hazırda dünyanın heç bir yerində erməni vandalizminin, erməni nifrətinin və düşmənçiliyinin nəticələrinin bu qədər əyani nümayişinə rast gəlmək mümkün deyil.

"Mən siyasi ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəsi, eyni zamanda, İsraildə Azərbaycan Evinin rəhbəri olaraq İsraildə və dünyadakı xarici həmkarlarımı minalanmış ərazilərin xəritəsini verməsi üçün təcili olaraq Ermənistana təzyiq göstərməyə çağırıram.

Azərbaycan Ermənistanın 28 il ərzində basdırdığı minalardan əziyyət çəkdiyi halda, Ermənistanın diversant qrupu tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdləri hərbçilərimizin və gələcəkdə mülki insanların həyatı üçün ciddi təhlükədir. Minalanmış ərazilərin xəritələrin verməsi bir çox şəxsin, o cümlədən jurnalistlərin ölüm təhlükəsi ilə üzləşməsinin qarşısını ala bilər", - deyə siyasi ekspert əlavə edib.

O vurğulayıb ki, lakin bugünkü beynəlxalq münasibətlər formatında dünya ictimaiyyəti susur, danışmır və sadəcə, laqeydlik göstərir. Bu münasibətə və susqunluğa son qoyulması üçün daha nə qədər günahsız azərbaycanlı mülki şəxs həyatını itirməlidir? Bu insanların günahı nədir? Uzaq tarixə getmək lazim deyil. 29 il əvvəl Xocalı şəhərində mülki əhalisinin düşünülmüş şəkildə qətlə yetirilməsi bu insanlara təkcə azərbaycanlı olduqlarına görə kütləvi divan tutmaq məqsədi daşımışdı. Günahsız uşaqlara, qadınlara və qocalara qarşı misli görünməmiş bu qəddarlıq və erməni vandalizmi, eyni zamanda, Ermənistan tərəfindən dəhşətli mina basdırma prosesi heç bir izaha sığmır.





# ADA Universitetində YAP Gənclər Birliyinin fəal üzvləri ilə görüş keçirilib

**İyunun 8-də ADA Universitetində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin fəal üzvləri ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə ADA Universitetinin Tələbə qəbulu və qeydiyyatı şöbəsinin mütəxəssisi Elşad Göyüşov gəncləri ali təhsil ocağında yaradılan şəraitlə tanış edib.**

Elşad Göyüşov gəncləri ali təhsil ocağında yaradılan şəraitlə tanış edib. Akt zalında davam edən görüşdə ADA Universitetinin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. E.Göyüşov bildirib ki, hazırda ADA Universitetində 2560 tələbə təhsil alır: “Müxtəlif ölkələrdən bu ali təhsil ocağında təhsil alan tələbələr burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfələr verirlər. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın aparıcı universitetləri ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar”.





ADA Universitetinin nümayəndəsi qeyd edib ki, təhsil ocağı fəaliyyətə başladığı gündən dərslər ingilis dilində tədris edilir.

Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələrinin fəaliyyət göstərdiyini, tələbələrin bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti, ümumilikdə 19 ixtisas üzrə təhsil aldığını bildirən mütəxəssis yeni ixtisasların yaradılmasından, həmçinin bu tanışlığın gələcək üçün perspektivlərindən də bəhs edib.



ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə “Gənclər siyasəti və iştirakçılıq” mövzusunda danışaraq bildirdi ki, təhsil hər bir dövlətin gələcəyidir. Gənclərimiz elmin sirlərinə dərindən yiyələnməli, savadlı, bilikli olmalı, öz bilik və bacrıqlarını

Diskussiya şəklində davam edən tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb. YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun müxtəlif ölkələrdən olan tələbələrin təhsil aldığı bu ali təhsil ocağında dəyər və ideologiya işinin hansı prizmadan həyata keçirilməsi ilə bağlı sualını cavablandıran icraçı prorektor Fariz İsmayılzadə bildirib ki, ADA Universitetində azad mühit mövcuddur: “Fərqli siyasi baxışlar, fərqli dəyərlər ola bilər. Azadlıq olan yerdə inkişaf, tərəqqi vardır. Hər kəsin fikirlərinə hörmətlə yanaşılır. Amma universitetin fəaliyyətində üç prinsip - bilik, vətənpərvərlik və bacarıq əsasdır. Tələbələr bilikli olmalı, vətənpərvərlik hissələrini müxtəlif istiqamətlərdə təsdiq etməli, bilik və bacarıqlarını ölkəmizin inkişafına yönəltməlidirlər. Bax, bu amillərin sintezi ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcək”.

ölkəmizin inkişafına, tərəqqisinə yönəltməlidirlər.

Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının sıralarında birləşdirdiyi gənclərə ictimai-siyasi fəallıqlarını artırmaları üçün geniş imkanlar açdığını bildirən F.İsmayılzadə YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun, eyni zamanda, hazırda görüşdə iştirak edən bir neçə gəncin məhz ADA Universitetinin məzunları olmasını vurğulayıb.

Gənclərin Azərbaycan həqiqətlərinin təbliğində fəal iştirakı məsələsinə diqqət çəkən F.İsmayılzadə deyib ki, onlar müasir dövrün imkanlardan maksimum istifadə etməlidirlər.

ADA Universitetinin məzunu, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov görüşün yüksək səviyyədə təşkilinə, onlara tanışlıq üçün yaradılan gözəl şəraitə görə bu ali təhsil ocağının rəhbərliyinə, bütün kollektivə öz təşəkkürünü bildirib.

# Erməni faşizminin azad sözə, mediaya qarşı terroru

## Prezident İlham Əliyev: "Minalanmış sahələrin xəritələrini verməmək cinayətdir"

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bütün müsahibələrində, beynəlxalq görüşlərdə dəfələrlə qeyd edib ki, minalanmış sahələrin xəritələrini verməmək cinayətdir. Çünki ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq dövlətimiz bu istiqamətdə genişmiqyaslı işlər görür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.**






Bu gün mənfur düşmən terror siyasətini təkcə işğal dövründə deyil, məğlubiyyətdən sonra da davam etdirir. Ermənistan hər yeri, hətta hərbi təyinatı olmayan əraziləri də minalayıb. Əsas məqsədi, əlbəttə ki, mümkün qədər çoxlu sayda mülki şəxslərin həlak olmasını təmin etmək, hər vəchlə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlərə mane olmaqdır. Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında söügedən məsələyə aydınlıq gətirməklə Ermənistanın cinayətkar əməllərini müharibədən sonra da davam etdirdiyini vurğulayıb: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Minalanmış sahələrin xəritələrini verməmək cinayətdir".




"Bu gün bizdə mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil. Yəni, əlbəttə, burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər" -deyən dövlət başçısı onu da vurğulayıb ki, biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq: "Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz".

### İnsanlıqla bir araya sığışmayan məkrli hərəkətlərin nəticəsi - bu dəfə erməni təxribatının qurbanı jurnalistlər olublar

İyunun 4-də Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olması və yaralanması Ermənistanın faşist xislətinin, insanlıqla bir araya sığışmayan məkrli hərəkətlər nəticəsidir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaların xəritəsinin verilməsi barədə təkidli tələblərinə baxmayaraq, Ermənistan hələ də bundan israrla boyun qaçırır, müraciətlərə məhəl qoymur. İnsanlıqla bir araya sığışmayan bu məkrli hərəkətlər nəticəsində mülki insanlar həlak olur, yaralanır. Bu, dinc insanların həyatına qəsd olmaqla yanaşı, azad sözə, jurnalistlərin fəaliyyətinə qarşı yönəlmiş açıq-aşkar terror aktıdır. Və ümid edirik ki, buna nə beynəlxalq təşkilatlar, nə dünya mediası, nə də beynəlxalq jurnalist təşkilatları biganə qalmayacaq, həmçinin digər mülki şəxslərin erməni terrorunun qurbanı olmasını pisləyəcək, jurnalist həmrəyliyi nümayiş etdirəcəklər. Çünki baş verənlər Ermənistan tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdlərinin faciəvi nəticəsinə daha bir sübutdur. Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular müharibə başa çatdıqdan sonrakı 7 ay ərzində 120-dən çox insanın həlak olmasına və ya yaralanmasına səbəb olub. Bu, Ermənistanın nə birinci, nə də sonuncu məkrli təxribatıdır. Belə ki, Azərbaycanın media nümayəndələrinin mütəmadi şəkildə erməni terrorunu beynəlxalq miqyasda ifşa etdiklərini bəyan edən Seymur Əliyev Çingiz Mustafayev, Salatın Əsgərova və digər jurnalistlərimizi qətlə yetirən erməni faşizminin bu gün də öz mənfur əməllərindən əl çəkmədiklərinin real sübutudur. Və bu gün bütün bəşəriyyət - beynəlxalq təşkilatlar, aparıcı dövlətlər Ermənistanın bu cinayətlərə görə cəzalandırılmasında maraqlı olmalı, bu yöndə əməli addımlar atmalıdır.

### Ermənistanın "xəritə" təxribatı - vandallığının, barbarlığının təsdiqidir

Bu gün Azərbaycan qalib ölkə, işğalçı ölkə isə kapitulyasiya aktına imza atmış məğlub dövlət oldu. Ancaq baş verən hadisələr göstərir ki, Ermənistan öz məkrli xislətindən əl çəkmir. Ermənistan isə minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir və əsas kimi də bu xəritələrin olmadığını deyir. Əlbəttə, bu, Ermənistan tərəfinin növbəti yalanıdır. Bu, işğalçı ölkənin nə birinci, nə də sonuncu yalanıdır. Məqsəd isə bəllidir: mümkün qədər çoxlu sayda insanın həlak olmasına nail olmaq, bu ərazilərə azərbaycanlıların qayıdışını maksimum uzatmaq. Azərbaycan isə azad olunmuş ərazilərimizdə mülki və hərbi şəxslərin minaya düşməsindən narahatdır. Prezident İlham Əliyev öncə minatəmizləmə işlərinin aparılmasını, bununla da qısa müddət ərzində bərpa işlərini aparmaqla ərazilərə azərbaycanlıların qayıdışını tezləşdirməkdir. Cari ilin fevral ayının 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu məsələnin çox vacib və daha məsuliyyətli olduğunu deyib: "Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, mən hesab edirəm ki, biz özəl şirkətləri bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir".

Prezident İlham Əliyev onu da bildirib ki, indi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir: "Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər".

### Hər bir minaya düşmə halı ermənilərin növbəti cinayətidir

İşğalçı ölkə bununla beynəlxalq konvensiyalara uyğun olaraq belə bir məsələni həll etməməsindən dinc insanların ölməsi və xəsarət alması hərbi cinayətdir. Təbii ki, minalanmış hər bir ərazinin xəritəsi mövcuddur. Hər bir minaya düşmə halı ermənilərin növbəti cinayətidir və bir gün gələcək ermənilər bunun da cavabını verəcək. İnsan haqlarından danışan beynəlxalq təşkilatlar bütün bu cinayətləri görür və təəssüf ki, üstündən susqunluqla keçir. Sülh şəraitində insanların minaya düşərək həlak olması insanlığa qarşı növbəti hərbi cinayətlərdir. Hərbi ekspertlərin sözlərinə görə, əslində, atəşkəs elan olunandan sonra işğalçı ordu əlində olan minaların basdırılmasına aid xəritələri sülhməramlılara və Azərbaycan tərəfinə təqdim etməli idi. Verməmədiyi halda bu, hərbi cinayət hesab olunur.

### İqor Korotçenko: "Ermənistan Azərbaycana Dağlıq Qarabağ ətrafındakı minalanmış ərazilərin xəritəsini mütləq verməlidir"

"Ermənistan Azərbaycana Dağlıq Qarabağ ətrafındakı minalanmış ərazilərin xəritəsini mütləq verməlidir". Bu barədə Moskva-Bakı videokörpüsündə çıxış edən Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib. Onun sözlərinə görə, işğaldan azad olunan Ağdam və Füzuli rayonlarında yüzlərlə kvadrat kilometr minalanmış ərazi var: "Xəritə olmadan 30 il bundan öncə doğma yurdlarından məcburi köçkün düşmüş dinc azərbaycanlıların qayıdışının təhlükəsizliyini təmin etmək çətindir. Təəssüflər olsun ki, biz bu məsələdə Ermənistan tərəfinin xoşməramlı iradəsini görmürük. Ermənistan minalanmış ərazilərin xəritəsini vermək istəmir. Hər zaman olduğu kimi qeyri-konstruktivlik nümayiş etdirir".

Bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Ancaq bütün bu çətinliklərə baxmayaraq, xalqımız inanır ki, Prezident İlham Əliyevin rəhbərliyi altında rayon və kəndlərimizə yeni nəfəs gələcək, yenidən abadlaşdırılacaq, mədəni, tarixi abidələrimiz bərpa olunacaq, qaçqın və köçkün insanlarımız öz yurd-yuvalarına dönəcəklər. Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Çünki Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır!

***RƏFİQƏ HÜSEYNOVA***

# Tarix ulu öndər Heydər Əliyev siyasətinin nə qədər doğru olduğunu sübut etdi

## Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun yap.org.az-a müsahibəsi

***- Səməd müəllim, Azərbaycan-Ermənistan sərhədində baş verən erməni təxribatlarını necə dəyərləndirirsiniz?***

- Bu, o qədər də asan bir sual deyil. Təəssüflər olsun ki, Ermənistanın daxilində olan bəzi qüvvələr 44 günlük Vətən müharibəsində məğlub olmalarını nə dərk, nə də qəbul etmək istəyirlər. Biz torpaqlarımızı işğaldan azad edərək qalib gəlmiş dövlətik, qalib xalqıq, özümüzü də qalib xalq kimi aparırıq. Cənab Prezidentin çıxışlarında səsləndirdiyi fikirlər, dünya ictimaiyyətinə müraciəti qalib xalqın və dövlətin liderinin mövqeyidir.

Amma məğlub tərəf öz məğlubiyyətini dərk etmədiyinə, etmək istəmədiyinə görə, belə provokasiyalara əl atır və yeqin ki, bunun çox şahidi olacağıq. Bu, məsələnin görünən, yəni, üst tərəfidir. Ermənistanda parlament seçkiləri ərəfəsində mövcud olan vəziyyət, sərhəddə törədilən təxribatlar, Azərbaycanı hansısa oyunlara cəlb etmək məsələsinin altında dərin qatlar var. Ermənistan tarix boyu böyük dövlətlər üçün bir alət rolunu oynayıb. Azərbaycanın apardığı siyasət, Vətən müharibəsində qazandığı Qələbə nəticəsində yeni reallıq yaranıb və bu reallıq həmin aləti yoxa çıxardıb. Bu alət özü mövcuddur, ancaq ondan istifadə edərək hansısa bir nəticə əldə etmək artıq mümkün deyil. Bəzi güclər hər zaman Ermənistandan istifadə edərək bulanıq suda balıq tuturdular. Ermənistandan Azərbaycana, Türkiyəyə qarşı alət kimi istifadə ediblər. Ermənistanın ən böyük faciəsi ondan ibarətdir ki, heç vaxt dövlət olmayıb, həmişə alət kimi istifadə olunub. İndi məğlubiyyətə uğrayaraq demək olar ki, həm dövlət kimi yoxdurlar, həm də alət kimi istifadə oluna bilmirlər.

Ona görə də müxtəlif təxribatların, provokasiyaların, bizi qıcıqlandırmaq cəhdlərinin şahidi ola bilərik. Bir məsələni qeyd edim. Fransa Prezidenti Azərbaycana Respublika Günü ilə bağlı təbrik məktubu göndərdi. Fransa Minsk qrupunun həmsədrlərindən biridir. Diplomatiyada hər saatın, hər günün önəmi var. Böyük dövlətlər Respublika Günü münasibəti ilə Azərbaycanı təbrik etdilər. Digər həmsədrlər olan Amerika Birləşmiş Ştatları və Rusiya Federasiyasından da təbrik gəldi. Amma Fransa bizi Respublika Günündə təbrik etmədi, həmin gündən bir müddət sonra təbrik məktubu göndərdi. Yəni, bu o deməkdir ki,



məcburiyyət qarşısında öz statusunu saxlamaq niyyəti ilə edib. Fransa faktiki olaraq regiondan kənarda qalıb. Regiona qayıtmaq niyyətində olduğu üçün bir tərəfdən Paşinyana hansısa vədlər verir, digər tərəfdən Respublika Günü ilə bağlı gecikmiş təbrik məktubu göndərir. Deməli, reallığı inkar edə bilmir. Bu, gedən prosesi anlamaq üçün çox incə bir detaldır. Regiona təsiri olan qüvvələr artıq dəyişib. Burada təsiri olan əsas dövlətlər Türkiyə, Rusiya və Azərbaycandır. Ermənistanın taleyi Azərbaycanla bağlıdır. Ona görə də səbirli, ağıllı siyasət həyata keçirərək vaxtı, zamanı düzgün seçməliyik. Cənab Prezident tərəfindən bu siyasət uğurla həyata keçirildiyi üçün Azərbaycan qalib dövlətdir.

***- Ermənistan tərəfi bu günlərdə elan etdi ki, baş nazirlərin müavinlərindən ibarət olan üçtərəfli komissiya işini dayandırıb. Bu nəyə hesablanmış addımdır? Seçkiqabağı vəziyyətlə bağlı ola bilərmi?***

- Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərindən təşkil olunan komissiya nəqliyyat kommunikasiya əlaqələrinin bərpası ilə bağlı bir neçə iclas keçirib. İndi erməni tərəfdən təmsilçi olan Mqer Qriqoryan dedi ki, komissiya fəaliyyətini artıq dayandırıb. Onlar demək olar ki, hər gün bir bəyanat verirlər. Həmin bəyanatdan sonra Moskvada yenə də üçtərəfli görüş keçirildi. Paşinyan özü də bu məsələlərlə bağlı biri-birinə uyğun olmayan bəyanatlar verir. Təbii ki, bəzi addımlar seçki ilə bağlıdır. Amma əsasən seçkiqabağı vəziyyətlə bağlı deyil. Onların dövlətçiliyi tamamilə iflasa uğrayıb, pərakəndəlik, xaos hökm sürür.

Mən ixtisasca psixoloqam. Ermənilərin düşdüyü bu vəziyyət psixologiyada çox ciddi tədqiq olunub. Ermənistan cəmiyyəti nevrotik vəziyyətə düşmüş cəmiyyətdir. Bunun müalicəsi varmı? Çox çətindir. Nəyə görə bu vəziyyətə düşməyin səbəbini dərk etmək, etiraf etmək lazımdır. Cənab Prezident də qeyd etdi ki, səbəb işğal siyasətidir. Ermənilər 30 ilə yaxın zamanda həyata keçirdikləri işğal siyasətinin səhv olduğunu dərk etməli, bunu etiraf etməlidirlər. Onlar etiraf etməlidirlər ki, gələcəkləri Azərbaycanla bağlıdır. Hələ ki, etiraf etməkdə çətinlik çəkirlər.

İnkar prosesindən sonra dərin depressiv vəziyyətə düşəcəklər. Mənim proqnozum belədir ki, bu depressiv vəziyyətdə erməni cəmiyyətində parlament seçkilərindən sonra müxtəlif çaxnaşmalar olacaq. Vətəndaş müharibəsi təhlükəsi də var. Ən sonda iki seçim qarşısında qalacaqlar. Ya müstəqillikdən məhrum olmuş, ərazi anlayışına çevrilmiş və idarə edilən bir quruma çevriləcəklər, ya da etiraf edib yavaş-yavaş dövlət olmağa başlayacaqlar.

***- Ermənistan təxribatlar törətdiyi, üçtərəfli Bəyanatın icrasında problemlər yaratdığı, Paşinyanın Avropada səfərdə olduğu vaxt Azərbaycan və Çin liderləri arasında telefon danışığı oldu. Bu telefon danışığını Çinin Azərbaycana, ölkəmizin həyata keçirdiyi siyasətə, "Zəngəzur dəhlizi"nə dəstəyi kimi dəyərləndirə bilərikmi?***

- Bəli, bu, Çin kimi super dövlətin Azərbaycana dəstəyidir. Azərbaycan dünyanın aparıcı ölkələrinin diqqət mərkəzindədir. Əsas olan ölkənin miqyası yox, onu idarə edən liderin düşüncəsinin miqyasıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan dünyada nüfuzlu, qlobal layihələr həyata keçirən, qlobal həmrəyliyə töhfə verən dövlətdir. Çin dünyanı idarə edən ölkələrdən biridir. Azərbaycan əhalisinin sayı Çinin bir şəhərində yaşayan əhali sayından azdır. Ancaq Azərbaycan öz strateji mövqeyinə, həyata keçirdiyi siyasətə görə dünya dövlətləri ilə yüksək səviyyəli münasibətlər yarada bilib. Prezident İlham Əliyevin siyasətində çox vacib bir məsələ var - həyata keçirilən siyasət, layihələr heç kimə qarşı olmur, beynəlxalq əməkdaşlığa xidmət edir. Vaxtilə Bakı-Tibilisi-Ceyhan kəməri müzakirə olunarkən ilk günlərdə layihə Rusiya tərəfindən etirazla qarşılanırdı. Amma ulu öndər Heydər Əliyevin böyüklüyü, dahiliyi və uzaqgörənliyi nəticəsində bu layihəyə Rusiya da daxil oldu və nəticədə "Əsrin kontraktı", 1995-ci ildə isə İstanbulda Bakı- Tbilisi-Ceyhan boru kəməri ilə bağlı protokollar imzalandı.

Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi dünya diplomatiyası üçün bir nümunədir. Rusiya "Şimal axını -2" layihəsini indiyədək həyata keçirə bilməyib. Ancaq Cənub Qaz Dəhlizi birmənalı şəkildə bütün iştirakçı dövlətlər tərəfindən qəbul olundu. Azərbaycanın Türkmənistanla "Dostluq" yatağı ilə bağlı imzaladığı tarixi bir saziş həm Qərb tərəfindən, həm Çin, həm də Rusiya tərəfindən dəstəklənir.

"Zəngəzur dəhlizi" də elə bir layihədir ki, bunu ABŞ da, Rusiya da, Çin də, Türkiyə də dəstəkləyir. Ermənistan da dəstəkləməlidir. Çünki yeni çıxış əldə edəcək. Cənab Prezidentin həyata keçirdiyi siyasət böyük dövlətləri bir-birinə qarşı qoymur, əksinə, onları əməkdaşlıq formatında birləşdirir. Azərbaycan birləşdirici funksiya yerinə yetirir.

***- Ağdamın işğaldan azad edilməsindən sonra bərpasının ilk təməl daşı qoyuldu. Artıq bölgədə böyük layihələrin icrasına, bərpaquruculuq işlərinə start verilib. Bununla bağlı fikirlərinizi bilmək istərdik?***

- Ağdamın yenidən dirçəldilməsi, Ağdamın yenidən qurulması Azərbaycanın həyata keçirdiyi siyasətlə birbaşa bağlıdır. Bu, dünyaya mesajdır ki, Azərbaycanın apardığı siyasət heç vaxt dünya üçün təhlükə yaratmayacaq. Bu, yalnız bir şəhərin dirçəlməsi deyil. Özü-özlüyündə bizim üçün müqəddəs bir hadisədir. Ona görə ki, "Qafqazın Xirosiması" adlandırılan Ağdam yaxın illərdə müasir şəhərə çevriləcək. Söhbət yalnız şəhərin gözəl olmasından getmir. Burada əsas məsələlərdən biri də həm də odur ki, xalqın psixologiyası dünyaya təqdim olunur. Bu xalq, dövlət dağıdılmış, sökülmüş, yerlə-yeksan edilmiş ərazini cənnətə çevirir. Bu, xalqın potensialını, dövlətin gücünü göstərir.

***- Bir neçə gündən sonra Milli Qurtuluş Gününü qeyd edəcəyik. İlk dəfə bu günü ərazi bütövlüyünü bərpa etmiş, qalib dövlət kimi qeyd edəcəyik. Bununla bağlı fikirlərinizi bilmək istərdik.***

- Həmin tarixi dövrlə bağlı cənab Prezidentin dəqiq dəyərləndirmələri var. 1991-92-ci illərdə AXC-Müsavat cütlüyü sanki hakimiyyət uğrunda yox, xalqı, dövləti məhv etmək uğrunda, xalqın özünəinamını öldürməklə məşğul idilər. Satqınlar, öz maraqlarını güdənlər, xalqın maraqlarını kənara qoyub, öz şəxsi maraqları naminə insanları bir-birinə qırdırırdılar. Ən dəhşətlisi isə o idi ki, hakimiyyəti əldə etmək üçün torpaqlarımızı satırdılar. Vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Onlar xalqın inamını qırdılar. Ölkəni bu təhlükədən qurtaran, xalqın inamını bərpa edən ulu öndər Heydər Əliyev oldu. Xalqın inam yeri təkcə Heydər Əliyev idi. Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gələrək dövləti yox olmaqdan xilas etdi. Heydər Əliyevin 1993-cü ildə Ali Sovetə rəhbər seçilməsi bizim xalq, dövlət olaraq yox olmaqdan, təhlükələrdən qurtuluşumuz oldu. Qurtuluş Azərbaycan xalqının müasir dünyada özünə yer tutmasının bayramıdır. Heydər Əliyev olmasaydı, müstəqil Azərbaycan da olmayacaqdı. Heydər Əliyev müstəqil Azərbaycanın bünövrəsini, əsasını yaratdı. Tarix ulu öndər Heydər Əliyev siyasətinin nə qədər doğru olduğunu sübut etdi. Həmin siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi.

# ABŞ demokratlarından Azərbaycana qarşı növbəti təhdid

## *Demokrat Bred Şerman Konqresdəki çıxışında 907-ci düzəlişin qüvvədə saxlanılmasını tələb edib!*

Amerikalı demokratların Azərbaycana qarşı aramsız hücumları davam edir. SİA-ya daxil olan məlumata görə, bir neçə saat əvvəl ABŞ Konqresinin ermənipərəst təmsilçisi, konqresmen Bred Şerman Ağ Evə müraciət edərək, Azərbaycanın əleyhinə qəbul olunmuş 907-ci düzəlişin qüvvədə saxlanılması tələbini irəli sürüb. Belə ki, adıçəkilən düzəlişə əsasən, ölkəmizə bütün növ silahların satışı qadağan edilib.

Və maraqlısı budur ki, özünü demokratların rəsmi simvoluna daha çox bənzədən bu "eşşək" guya Azərbaycanın "DQR"in, eləcə də Ermənistanın "sərhədlərini" pozması ilə əlaqələndirib. Bununla da yenidən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dil uzadan Bred Şerman bu kimi axmaq iddiaları ilə açıq-aşkar isbat edir ki, bu gün ABŞ-da hakimiyyətdə olan sözdə demokratlar, reallıqda isə ədalətsizlər və siyasi həyasızlar toplumu bilavasitə (!)




erməniçilik, daha dəqiq desək, erməni işğalı və təcavüzkarlığı cinahından çıxışlar edirlər. Uzağa getməyərək, qondarma erməni soyqırımı faktının Bayden administrasiyası tərəfindən tanınmasını xatırlatmaq kifayət edər.

### Konqresdə konqresmenlər tərəfindən "DQR" ifadəsi səslənirsə, demək ki...

Beləliklə, görünən həm də budur ki, ABŞ-ın sözdə demokratları hələ də qondarma "respublika" məsələsini gündəmdə saxlayırlar və bu baş verirsə, yəni Konqresdə konqresmenlər tərəfindən "DQR" ifadəsi səslənirsə, demək ki, Ağ Ev administrasiyası onu Cənubi Qafqaz siyasəti konsepsiyasında yerləşdirib. Digər tərəfdən, belə bir tələbin həm də bəyanat kimi də ortaya atılması sorosçu Filip Rikerin region ölkələrinə, eləcə də Azərbaycana rəsmi səfəri ərəfəsində və çərçivəsində ölkəmizə genişmiqyaslı hücumların, təzyiqlərin başladıldığının göstəricisidir.

Müraciəti bu linkdən izləyə bilərsiniz: https://www.youtube.com/-watch?v=yYg_tdcL4vQ

Hətta Konqresdəki çıxışlarla yanaşı, Bred Şerman qeyd edilən fikirlərini tvitterdəki səhifəsində də paylaşıb.

Maraqlısı isə budur ki, ABŞ demokratları Azərbaycana qarşı təzyiq və aşırı qərəz ifadə etdikləri halda, onların əsas idarəçi fiquru Corc Sorosun "Açıq Cəmiyyət İnstitu"nun bazası fonunda fəaliyyət göstərən USAİD burada - Azərbaycanda siyasiləşmiş və müxalifətyönlü QHT-lərlə, müxalifətçi (əsasən, radikal yönlü) siyasi partiyalarla gizli iş birlikləri aparır, üstəlik, qrant layihələrini də icra edir. Ermənilərə varlı xalalıq rolunu oynayan USAİD-in Azərbaycan üzrə rəhbəri Samanta Pauer isə İrəvanda qondarma erməni soyqırımı abidəsi önündə baş əyib, kədərli poza verərək, dualar edir.

ANALİTİK+FAKT

### Maraqlıdır ki, USAİD-in Azərbaycan üzrə rəhbəri "xanım" Samanta Pauer Bakıda Şəhidlər Xiyabanını ziyarət edərək, onların ruhları qarşısında dua edibmi?! Yox!

Demək hər şey gün kimi aydındır və istər USAİD olsun, istərsə də Sorosun amerikalı saxta demokratları olsun, onların hər biri açıq-aşkar erməniprəstlik mövqelərini artırmaqda və ölkəmizə qarşı təzyiq maraqlarında dayanmaqdadırlar. Elə Filip Rikderin Azərbaycana səfəri ərəfəsində ABŞ Konqresində Bred Şermanın 907-ci düzəlişlə bağlı tələbi və bəyanatı da onların təzyiq rıçaqları kimi anlaşıla bilər. Hələ gec deyil və bu erməniprəstlərin sərt cavablarının verilməsinə zaman var!

**Rövşən RƏSULOV**

# Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib

**Dünən VI çağırış Milli Məclisin 6-cı sessiyası öz işinə başlayıb. Milli Məclisin sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycanın dövlət himni səsləndirilib.**



Növbədənkənar sessiyanın açılışında Milli Məclisin sədri mayın 31-dən iyunun 4-dək Azərbaycan parlamenti nümayəndə heyətinin Pakistan İslam Respublikasına işgüzar (1-2 iyun) və rəsmi (3-4 iyun) səfərləri barədə məlumat verib.

Əvvəlcə İslamabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İkinci Ümumi Konfransından söz açan Sahibə Qafarova xatırladıb ki, İƏT regional dövlətlərarası iqtisadi təşkilatdır və sıralarında 10 dövləti - Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkiyə və Türkmənistanı birləşdirir.

Üzv ölkələrin parlament sədrlərinin çıxışları ilə başlanan tədbirdə Milli Məclisin sədri iştirakçıların nəzərinə çatdırıb ki, Azərbaycan nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən İƏT ilə əlaqələrin inkişafına böyük önəm verir. Biz hesab edirik ki, təşkilatın üzvü olan ölkələr arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi günün tələbidir.

İƏT PA-nın İkinci Ümumi Konfransında regional inteqrasiya naminə parlament tərəfdaşlığının təşviq edilməsinə dair aparılan fikir mübadiləsi zamanı Azərbaycan parlamentinin rəhbəri dünya birliyini təhdid edən qlobal problemlərin həlli yollarına ümumi yanaşmaların müəyyən edilməsində parlamentlərarası əməkdaşlığın və parlament diplomatiyasının rolundan danışıb. Qeyd edib ki, təşkilatın üzvü olan ölkələr arasında inteqrasiya proseslərinin güclənməsi bölgələrimizin zəngin təbii ehtiyatlarının, nəqliyyat imkanlarının və intellektual potensialının daha səmərəli istifadəsinə kömək edəcək.

Sahibə Qafarova xüsusi vurğulayıb ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı ilə üz-üzə qalsa da, uğurlu regional layihələrin həyata keçirilməsinə nail olub, enerji təhlükəsizliyinin təmin edilməsində və enerjinin çatdırılma marşrutlarının şaxələndirilməsində mühüm tərəfdaşa çevrilib. Ötən ilin sonlarında Azərbaycan erməni işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa edib. Bununla da bölgədə iqtisadi inteqrasiya üçün yeni imkanlar yaranıb. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpasına dair genişmiqyaslı proqramlar icra edilməkdədir. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində bir sıra ölkələrin, əsasən də Azərbaycana dost ölkələrin şirkətləri iştirak edir.

Plenar iclasda deputatların nəzərinə çatdırılıb ki, İƏT PA-nın İkinci Ümumi Konfransı çərçivəsində qadın parlament üzvlərinin iclası keçirilib. Həmin iclasın ilk sessiyasına Azərbaycan parlamentinin rəhbəri Sahibə Qafarova sədrlik edib. Konfransın ayrı-ayrı mövzulara həsr olunan panel iclaslarında Azərbaycan nümayəndə heyətinin üzvləri fəal iştirak ediblər.

Bildirilib ki, konfransın gedişində Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi və Baş nazir İmran Xan milli nümayəndə heyətlərinin rəhbərləri ilə görüşərək söhbət aparıblar, sonra isə bütün nümayəndə heyətləri qarşısında çıxış ediblər.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyətinin keçirdiyi ikitərəfli görüşlərdən bəhs edən spiker Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop, Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilov, Əfqanıstan Milli Assambleyası Xalq Palatasının sədri Mir Rahman Rahmani ilə aparılan danışıqların parlamentlərarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli olduğuna əminlik ifadə edib.

Deputatlara məlumat verilib ki, həmin görüşlər zamanı torpaqlarımızın 30 ilə yaxın erməni işğalı altında olması, erməni vandallarının işğal dövründə şəhər və kəndlərimizi viran qoyması, 44 günlük Vətən müharibəsi nəticəsində işğalın aradan qaldırılması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, eləcə də müharibədən sonrakı dövrdə Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi, hərbi qulluqçularımızın və dinc sakinlərin minalara düşərək həlak olması barədə məlumatlar hər bir nümayəndə heyətinin nəzərinə çatdırılıb. Qeyd olunub ki, Konfransın yekunu olaraq imzalanan İslamabad Bəyannaməsinin müddəaları təşkilat üzvlərinin bölgələrimizdə tərəfdaşlıq və əməkdaşlıq proseslərini inkişaf etdirmək əzmində olduqlarını bir daha nümayiş etdirib.

Milli Məclisin sədri Azərbaycan nümayəndə heyətinin Pakistana rəsmi səfərinin də böyük uğurla keçdiyini vurğulayıb. Rəsmi səfər zamanı nümayəndə heyətimizin İslamabadda Azərbaycan səfirliyini ziyarət etdiyini, Ulu öndər Heydər Əliyevin xatirəsinin anıldığını və onun büstü önünə gül qoyulduğunu bildirib.

Səfər çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər, Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani ilə, həmçinin hər iki qurumun dostluq qrupları ilə keçirilən görüşləri yüksək dəyərləndirən Sahibə Qafarova bildirib ki, görüşlərdə dost və qardaş ölkələr olan Pakistanla Azərbaycanın münasibətlərinin strateji müttəfiqlik səviyyəsində olduğu vurğulanıb. Spiker qeyd edib ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, rəsmi səfər zamanı keçirilən görüşlərdə ölkələrimiz arasında mədəni-humanitar münasibətlərin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Bildirilib ki, bu sahədə görülmüş dəyərli işlər sayəsində Mehriban xanım Əliyeva 2015-ci ildə Pakistanın ali mükafatı olan "Hilal-e Pakistan" ordeni ilə təltif edilib.

Azərbaycan-Pakistan qardaşlığının tarixinə toxunan spiker Pakistanın son 30 ildə Ermənistanı dövlət kimi tanımamasının və bu ölkə ilə münasibət qurmamasının xüsusi önəmindən danışıb, 2020-ci ilin mövcud dostluq tariximizdə yeni parlaq səhifə təşkil etdiyini bildirib. Xatırladıb ki, Vətən müharibəsinin ilk günlərindən etibarən Pakistan qətiyyətli mövqe sərgiləyərək Azərbaycanın haqq işini müdafiə edib, ölkəmizə siyasi və mənəvi dəstək göstərib. Bu 30 il ərzində göstərilən dəstəyə görə səfər zamanı Pakistan dövlətinə və parlamentinə Azərbaycan dövlətinin və xalqının dərin minnətdarlığı çatdırılıb. Eyni zamanda qeyd edilib ki, Xocalı faciəsi ilə əlaqədar Pakistanın parlamenti və müxtəlif qurumları tərəfindən qəbul olunmuş sənədlər böyük əhəmiyyət daşıyır.

Deputatlara məlumat verilib ki, həm Pakistan dövlətinin başçısı, həm də parlamentin hər iki palatasının rəhbərləri Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən böyük sevinc və qürur duyduqlarını bildiriblər, söyləyiblər ki, Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.

Səfər zamanı keçirilən görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri ətraflı müzakirə olunub, ikitərəfli siyasi, iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

Milli Məclisin sədri hər görüşdə nəzərə çatdırıb ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Ermənistan Qarabağda başlanmış bərpa və quruculuq işlərinə mane olur, minalanmış ərazilərin xəritələrini vermir, sərhəddə təxribatlar törədir, ərazilərimizə terrorçuların keçməsinə şərait yaradır, müharibə başa çatdıqdan sonra Azərbaycan ərazisində həbs olunmuş təxribatçıları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır. Ermənistanın düşmənçilik hərəkətlərinin qarşısını almaq üçün beynəlxalq təşkilatlara təsir göstərilməsinin vacibliyi, müharibənin aylar öncə başa çatmasına baxmayaraq Ermənistanın minaladığı ərazilərin xəritələrini verməməsi ucbatından hələ də hərbi qulluqçuların və dinc sakinlərin həlak olduğu pakistanlı parlamentarların diqqətinə çatdırılıb.

Sahibə Qafarova iyunun 4-də Kəlbəcər rayonu ərazisində mülki şəxslərin, o cümlədən 2 jurnalistin mina partlayışı nəticəsində həlak olduğunu da görüş iştirakçılarının diqqətinə çatdırıb, bu hadisənin Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut etdiyini bildirib. Plenar iclasda Sahibə Qafarova Kəlbəcərdə həlak olanlara Allahdan rəhmət, yaralananlara şəfa diləyib.

Bildirilib ki, səfər zamanı Sahibə Qafarova Pakistanla Azərbaycan arasında parlamentlərarası və dövlətlərarası münasibətlərin inkişafına verdikləri töhfəyə görə Pakistan parlamentinin Milli Məclisin Fəxri medalı ilə təltif olunmuş 7 üzvünə, o cümlədən Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərə və Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancraniyə həmin medalları təqdim edib.

Səfər çərçivəsində Pakistan Senatında və Milli Assambleyasında fəaliyyət göstərən Azərbaycanla parlamentlərarası dostluq qruplarının üzvləri ilə görüşlər də çox səmərəli olub. İki dost və qardaş ölkə arasında münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Plenar iclasda Sahibə Qafarovanın Pakistan səfəri barədə məlumatı dinlənildikdən sonra Milli Məclisin növbədənkənar sessiyası işinə başlayıb. Əvvəlcə 12 məsələdən ibarət gündəlik təsdiqlənib. Bildirilib ki, ölkəmizdə səfərdə olan Latviya Seyminin nümayəndə heyəti də plenar iclasda iştirak edir.

Cari məsələlərin müzakirəsində deputatlar Jalə Əliyeva, Azər Badamov, Musa Quliyev, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Fəzail Ağamalı, Razi Nurullayev, Elşən Musayev, Kamal Cəfərov, Müşfiq Cəfərov, Bəhruz Məhərrəmov bir sıra mühüm məsələlərə toxunublar.

Çıxışlarda Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən Ermənistanın yerləşdirdiyi tank əleyhinə minaya düşərək həlak olan jurnalistlərin və onları müşayiət edən yerli icra hakimiyyəti nümayəndəsinin xatirəsinə ehtiram ifadə olunub. Vurğulanıb ki, beynəlxalq qurumlar və dünya dövlətləri mina xəritələrini Azərbaycana verməsi üçün Ermənistana təzyiq göstərməlidirlər, Ermənistan terror dövləti olduğunu və terrorizmi dövlət siyasətinə çevirdiyini bir daha təsdiqlədi.

Deputatlar Kəlbəcərdə baş verən hadisəyə münasibətdə yenə susqunluq nümayiş etdirən ATƏT-in Minsk qrupunun ləğvini təklif ediblər. Həmçinin Novosibirskdə 19 yaşlı Vəkil Abdullayevi qətlə yetirən polisin azadlığa buraxılmasını, ardınca Rusiya KİV-də müşahidə olunan qeyri-adekvat münasibəti olduqca təhlükəli tendensiya kimi dəyərləndiriblər. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsinə dair qanun layihəsi barədə Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun geniş məlumatları dinlənilib. Qanun layihəsi çox vacib və əhəmiyyətli sənəd kimi dəyərləndirilib. Vurğulanıb ki, bu sənədin ratifikasiyası qardaş Türkiyə ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə xidmət edəcək. Sənəd səsə qoyulub və qəbul edilib.

Daha sonra plenar iclasda üçüncü oxunuşda müzakirəyə təqdim olunmuş qanun layihələrinə baxılıb. Müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin Pakistan səfərinə də münasibət bildirilib, keçirilən görüşlər və aparılan danışıqlar yüksək dəyərləndirilib.

İclasda "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 2020-ci ilin dövlət büdcəsinin icrası Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə mak-

# Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib

roiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynayıb. Eyni zamanda keçirilən müzakirələr zamanı bütövlükdə büdcə icrası layihəsinin gələcəkdə təkmilləşdirilməsi, büdcə qanunvericiliyi üzərində yeniliklərin həyata keçirilməsi, çatışmazlıqların aradan qaldırılması, bütün tərəflər arasında gələcəkdə əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində ümumi razılıq ifadə olunub.

Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsində deputatlar Razi Nurullayev, Qənirə Paşayeva, Tahir Rzayev, Aydın Hüseynov, Nigar Arpadarai, Vüqar İsgəndərov, Tahir Kərimli fikirlərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, 2020-ci il dövlət büdcəsinin çox qeyri-adi şəraitdə icra olunmasına baxmayaraq, bütün hədəflərə nail olunub.

Maliyyə naziri Samir Şərifov ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı geniş çıxış edib və parlamentdəki müzakirələrdə deputatların qaldırdıqları məsələlərə münasibət bildirib. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Gündəlikdəki növbəti qanun layihələri barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədovun və Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatları dinlənildikdən sonra "Kredit ittifaqları haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul olunub. Parlamentdə, eyni zamanda, birinci oxunuşda müzakirəyə təqdim olunmuş 8 qanun layihəsinə baxılıb.

Gündəlikdəki növbəti 7 qanun layihəsi mahiyyətcə bir-birinə yaxın olduğundan həmin qanun layihələri barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ümumi məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə təqdim edilmiş qanun layihələri zərfi əlilliyin qiymətləndirilməsinin yeni meyarlarını və qaydalarını müəyyən edir, həmçinin əlaqəli qanunlarda bu müddəalardan irəli gələn uyğunlaşma xarakterli dəyişiklikləri nəzərdə tutur.

Komitə sədri nəzərə çatdırıb ki, Azərbaycanın da qoşulduğu "Əlillərin hüquqları haqqında" BMT-nin Konvensiyası əlillik sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq və normalara uyğunlaşdırılmasını tövsiyə edir. Azərbaycan Prezidentinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli Fərmanı və "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 yanvar tarixli Fərmanı ilə əlilliyin müəyyən edilməsi meyarlarının və qaydalarının ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanması barədə hökumətə tapşırıq verilib.

Musa Quliyev bildirib ki, müzakirəyə çıxarılmış 7 qanun layihəsi həmin tələblərdən irəli gələrək hazırlanıb və ümumilikdə 60 qanunda 197 dəyişikliyi nəzərdə tutur. Əlillik siyasəti sahəsində baza qanunu hesab edilən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun 11 maddəsinə edilən 30 dəyişiklikdən əsas məqsəd əlilliyin təyinatı prosesində ünvanlılığın, şəffaflığın və sosial ədalətin təmin edilməsi, bu sahədə beynəlxalq təcrübənin və standartların tətbiqi, xidmət keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır.

Komitə sədri deputatların nəzərinə çatdırıb ki, Qanunda indiyədək işlənən "əlillik dərəcəsi" ifadəsi "orqanizmin funksiyasının pozulması faizi" ifadəsi ilə əvəz olunur. Bu dəyişiklik qəbul olunandan sonra şəxsin əlillik vəziyyəti qiymətləndirilərkən ənənəvi 3 əlillik dərəcəsi deyil, orqanizmin funksiyalarının 30 faizdən yuxarı pozulması meyarı əsas götürüləcək. Yəni funksiyanın 31 faizdən 60 faizədək pozulması mövcud 3-cü dərəcəli əlilliyə, 61 faizdən 80 faizədək pozulması 2-ci dərəcəli əlilliyə, 81 faizdən 100 faizədək pozulması isə 1-ci dərəcəli əlilliyə uyğun qiymətləndiriləcək. Beləliklə, sağlamlığın pozulmasının faizlə qiymətləndirilməsi eyni ənənəvi əlillik dərəcəsi daxilində olan şəxslərin reabilitasiya potensialının, bərpa imkanlarının, reabilitasiya vasitələrinə ehtiyacının, yaxın gələcəkdə sosial müavinət və pensiya təminatının faizlər səviyyəsində dəqiq diferensiallaşmasına imkan yaradacaq.

Plenar iclasda 7 qanun layihəsini ətraflı şərh edən Əmək və sosial siyasət komitəsinin sədri bildirib ki, bu dəyişikliklər zərfi qəbul ediləndən sonra sosial müavinətlər və əmək pensiyaları haqqında qanunlara dəyişiklik edilməsi nəzərdə tutulur. Yaxın gələcəkdə aparılacaq islahatların növbəti mərhələsində pensiya və müavinətləri orqanizmin funksiyasının pozulma faizinə uyğun şəkildə artırmaqla əlilliyi olan şəxslərin sosial müdafiəsini daha ədalətli və etibarlı şəkildə təmin etmək mümkün olacaq. Musa Quliyev 18 yaşınadək əlilliyi olan uşaqların reabilitasiyasına və sosial müavinətlə təminatına diferensial yanaşma imkanı yaradacaq dəyişikliklərdən də bəhs edib.

Yeni layihəyə görə, əlilliyin ekspertizası proseduru üçün sənədlər elektron qaydada TSEK-ə daxil olandan 10 gün, əlavə müayinə tələb olunan hallarda isə 15 gün müddət qoyulduğu bildirilib.

Qeyd olunub ki, layihələr hazırlanarkən əlilliyin müəyyən edilməsi meyarları sahəsində mövcud olan qabaqcıl beynəlxalq təcrübə ətraflı nəzərdən keçirilib. Bu məsələlər Əmək və sosial siyasət komitəsinin genişləndirilmiş iclasında qanun layihəsi subyektlərinin iştirakı ilə geniş təhlil və müzakirə olunub. Qanunun 2022-ci ilin 1 yanvarından qüvvəyə minməsi nəzərdə tutulur.

Sonra iclasda müzakirələr başlanıb. Öncə gündəlikdəki qanun layihələrinin müzakirə olunduğu 11 komitənin rəyi öyrənilib. Müzakirələrdə komitə sədrləri Zahid Oruc və Siyavuş Novruzov, komitə sədrlərinin müavinləri Əli Məsimli, Qüdrət Həsənquliyev və Sahib Alıyev, deputatlar Razi Nurullayev, Azər Badamov, Elman Nəsirov, İlham Məmmədov, Rüfət Quliyev və Sabir Rüstəmxanlı rəy və təkliflərini bildiriblər. Layihələr mütərəqqi qanun layihələri kimi dəyərləndirilib. Qeyd olunub ki, Azərbaycan sosial dövlətdir.

Komitə sədri Musa Quliyev deputat həmkarlarını maraqlandıran məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub. Plenar iclasda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi; "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi; Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi; "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi; "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkmədən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi; "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərə dövlət müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixatriya yardımı haqqında", "İcbari sığortalar haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi; "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda qəbul edilib.

Sonra plenar iclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanunun 2 maddəsinə - 9-cu və 11-ci maddələrinə dəyişiklik edilməsi nəzərdə tutulub və bütövlükdə müharibə qazilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır.

Müzakirədə deputatlar Tahir Kərimli və Musa Quliyev fikirlərini bildirdikdən sonra layihə səsə qoyulub və "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklər birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

## Ümumdünya Mətbuat Şuraları Assosiasiyası Kəlbəcərdə həlak olan jurnalistlərlə bağlı bəyanat yayıb




Ümumdünya Mətbuat Şuraları Assosiasiyası AzTV-nin operatoru Sirac Abışovun və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun mina partlayışı nəticəsində həlak olmaları ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir:

-2021-ci il iyun ayının 4-də Azərbaycanın Kəlbəcər rayonunda iki media əməkdaşı - AzTV-nin operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov mina partlayışı nəticəsində həlak oldular. Bu hadisə Ümumdünya Mətbuat Şuraları Assosiasiyası tərəfindən təəssüf və kədərlə qarşılanıb. Hər iki media təmsilçisinin doğmalarına, əzizlərinə və həmkarlarına dərin hüznlə başsağlığı veririk.

Media əməkdaşlarının xidməti vəzifələrini yerinə yetirərkən həlak olmaları, onlara qarşı hücumlar müasir dünyanın olduqca qorxunc və sarsıdıcı tendensiyasıdır. Çünki jurnalistlərlə birgə hücuma məruz qalan sözdür. Cəmiyyətin informasiya almaq hüququna qarşı siper çəkilməsi tərəfimizdən hiddətlə qarşılanmaqdadır. Sirac Abışovun və Məhərrəm İbrahimovun həyatlarını itirmələrini məhz belə qiymətləndiririk. Bu qorxunc əməli törədənlərin tezliklə layiqli cəzalarını almalarını diləyirik. Bunun üçün isə beynəlxalq ictimaiyyətin məsələyə ciddi reaksiya verməsinə ehtiyac var.

Bizdə olan məlumata görə, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında minalanmış ərazilər problemi xeyli dinc şəxsin həyatına son qoyub. O da məlumdur ki, Ermənistan minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir. M.İbrahimovun və S.Abışovun həlak olmaları göstərdi ki, jurnalistika da yaranmış xoşagəlməz durumdan zərər görür. Hər iki media təmsilçisi Kəlbəcərə özlərinin peşə vəzifələrini yerinə yetirmək üçün getmişdilər.

Bütün bunları nəzərə alaraq beynəlxalq ictimaiyyətə, media qurumlarına müraciət edir və bildiririk ki, XXI əsrdə bütövlükdə insanlığa qarşı yönəlmiş belə hərəkətlərin aradan qaldırılması üçün ciddi həmrəylik nümayişinə ehtiyac var. M.İbrahimovun, S.Abışovun, eləcə də mina partlayışından həlak olmuş digər azərbaycanlıların faciəli aqibəti hər kəsə siqnal olmalıdır. Hər kəs şüurlu şəkildə dərk etməlidir ki, Ermənistana mövcud istiqamətdə təzyiqin göstərilməsi şərtdir. Bizim üçün əsas olan xidməti vəzifəsini yerinə yetirən jurnalistlərin təhlükəsizliyidir. Çox arzu edərdik ki, bu təhlükəni yaradan problemə həssas yanaşılsın, onun aradan qaldırılmasındakı bütün üsul və vasitələrdən istifadə edilsin.

# "YAP-AKP əməkdaşlığı yeni mərhələyə qədəm qoyur"

**Bu gün Türkiyə Azərbaycan arasında mövcud olan əməkdaşlıq və strateji tərəfdaşlıq dövlətlərarası münasibətlərin inkişafında dostluq-qardaşlığa söykənir və uğurla davam etdirilir. Əlbəttə ki, dövlətlər arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixi dövrü əhatə edir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olub, sıx əməkdaşlıq edib. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra dost və qardaş ölkə Türkiyə ilə bütün sahələrdə əlaqələr davamlı yüksələn xətt üzrə inkişaf edir.**

Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyəti ilə ötən dövr ərzində öz təsdiqini tapıb. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan





*Namiq Əhmədov*
*YAP Xəzər rayon təşkilatının sədri*

Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Dövlətlərimiz arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Resublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirmişdir. İşğal olunmuş Azərbaycantorpaqlarının 2020-ci ildə əkshücum əməliyyatı ilə erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun prezidentinin Azərbaycana göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi idi. Vətən müharibəsi dövründə Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. 2021-ci il 1-3 iyun tarixlərində Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Türkiyə səfəri və səfər çərçivəsində hakim Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan və partiyanın digər rəsmiləri ilə keçirilən görüşlər və müzakirələr hər iki dövlətin əlaqələrinin inkişafına yeni imkanlar yaratdı. Nümayəndə heyətini qəbul edən Türkiyə Prezidenti Türkiyə-Azərbaycan əlaqələrinin hazırkı mərhələyə çatmasında Azərbaycan Prezidentinin rolunu yüksək qiymətləndirdiyini vurğulamış, bundan sonra da bölgədə sülhün bərqərar olması və iki qardaş ölkənin münasibətlərinin daha da inkişaf etdirilməsi işinə Prezident İlham Əliyevin mühüm töhfələr verəcəyinə əmin olduğunu ifadə etmiş, hər iki tərəfdən hakim partiyaların roluna toxunaraq partiya funksionerlərinin fəaliyyətlərini yeni çağırışlara uyğunlaşdıra bilmələrinin vacibliyini qeyd etmişdir.

Hər iki ölkənin hakim partiyaları - YAP və AKP arasında uzun illərdir davam edən əməkdaşlıqyeni mərhələyə qədəm qoyur. İyun ayının 2-də əməkdaşlığa dair imzalanmış niyyət protokolu partiya təcrübəsinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edə bilər. Partiya liderləri arasında olan dostluq münasibətləri YAP və AKP arasında əlaqələrin daha da yaxınlaşmasına, uğurlu təcrübə mübadiləsinə təkan verəcəyinə əminlik yaradır. Dostluq və qardaşlıq əlaqələri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi hakim siyasi partiyaların münasibətlərində də nümunəvi məcrada dinamik şəkildə inkişaf edəcəkdir.

44 günlük Vətən müharibəsindəki tarixi qələbədən sonra qardaş ölkənin aparıcı şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərində yaxından iştirakı iqtisadi əlaqələrin inkişafında yeni dövrün başlanğıcının əsasını qoydusa, YAP və AKP arasında imzalanmış niyyət protokolu iki ölkənin siyasi arenasında müxtəlif istiqamətlərdə yaxınlaşmanın müjdəçisidir. YAP və AKP sədrlərinin - dövlət başçılarının tapşırıqları əsasında iki qardaş ölkənin hakim partiyaları arasında çoxistiqamətli əlaqələrin daha da inkişaf etdirilməsi milli ideologiyaların inkişafına, birgə sosial layihələrin işlənib hazırlanmasına, qarşılıqlı təcrübə mübadilələrinə, eləcə də millət vəkillərinin beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti üzrə koordinasiyanın yaradılmasına təkan verəcəkdir. Azərbaycan və Türkiyənin iqtidar partiyaları üzv olduqları müxtəlif beynəlxalq siyasi platformalarda bir-birinin maraqlarının qorunmasında, eləcə də müsbət təcrübənin öyrənilərək tətbiqində, gənclərin beynəlxalq fəaliyyətində və digər istiqamətlər üzrə davamlı əməkdaşlıq edəcəklər.

# Toylara olan qadağa götürülür?

"Bildiyimiz kimi, Azərbaycanda toy hər hansı bir iki nəslin şadlıq məclisi ilə yanaşı, həm də çox böyük sosial, psixoloji, mənəvi, mədəni və iqtisadi bir hadisədir. Toy biznesi dəfələrlə vurğulandığı kimi Azərbaycanda özü ilə yanaşı yüzə yaxın sahəni inkişaf etdirən, Azərbaycan iqtisadiyyatına böyük təkan verən, işsizlik ordusunu işlə təmin edən sahədir. Eyni zamanda toyun toyla yanaşı, onun ətrafında müxtəlif digər istiqamətlərdə, bu və ya digər dərəcədə cəmiyyətin inkişafına, cəmiyyətin ayrı-ayrı qruplarının həm iqtisadi, həm sosial, həm ictimai həyatına təsir edən hadisədir". Bu sözləri SİA-ya açıqlamasında yazıçı kulturoloq Aydın Xan Əbilov deyib.



Onun sözlərinə görə, Azərbaycanda iki ilə yaxındır ki, toylar zəifləyib: "Bundan əvvəl də onsuz da iqtisadi problemlər yaşanırdı. İki il öncə toyların sayı çox az idi. Nikahagirmə və boşanma statistikasına nəzər salsaq, görərik ki, onsuz da toy biznesi və toylarla bağlı problemlər yaşanıb. Pandemiya və 44 günlük Vətən müharibəsi də toy biznesinə təsir etdi".

"Son illər Azərbaycanda toyların sayı həddindən artıq azalıb. Toylarla yanaşı həm də əhalinin gəliri azalıb, iş yerləri bağlanıb, toyla əlaqədar iş sahələri demək olar ki, böhran içindədir. Eyni zamanda, demoqrafik problem də yaşanır. Çünki son il yarımdır toyların olmaması ictimai nikahların artması və nikaha daxil olanların sayının azalması əhali artımında müəyyən problemlər yaradır. Yəni, nəsil yaranmır, uşaqlar doğulmur və s".

"Toylarla yanaşı bizim mənəvi-psixoloji problemimiz var. İctimai nikahlara daxil olub, heç bir sənədlə rəsmiləşdirilməyən, xarakterləri alınmayan insanların münasibətləri korlanır və boşanmalarla nəticələnir. Əlbəttə, bizim kimi ictimai düşüncə adamları Nazirlər Kabineti yanında Operativ Qərargahın üzvlərinə müraciət edir. Azərbaycanda qadağan olan toyların bir qismi artıq Rusiyaya köçüb. Yəni, Azərbaycanlılar gedib Rusiyada toy edirlər. Eyni zamanda, bizim toy sistemində çalışıb işləyən musiqiçilər, aşbazlar, rəqqaslar, müğənnilər, vizajistlər, dərzilər və s. adamlar artıq ölkədən axın edib xaricə yollanırlar. Bildiyim qədəri ilə 150-dən çox müğənni və onları müşahidə edən sənətçilər artıq Rusiyada toylarda çalışırlar. Hətta bir qismi də artıq Rusiyada və Türkiyədə yaşayır".

Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Əlbəttə, təkliflər var ki, toylar tezliklə keçirilsin. Bu təkliflərin bir qismi də toyların real şəkildə (nişan, xına, oğlan-qız toyu) mini məclislər formasında ola bilər. Bu şəkildə insanlar başqalarının toyuna atdıqları nəmərləri geri qaytara bilərlər. Bu qayda həm də Operativ Qərargahın verdiyi tövsiyyələri də yerinə yetirmiş olur. Qəribədir, ölkədə bütün restoranlar və kafelər doludur. Amma, toy keçirmək lazım gəldikdə xəstəlik və pandemiya var. Bəli, pandemiyada sosial məsafə gözlənilməlidir. Lakin bir çox şadlıq evlərinin açıq hava hissəsi var və burada toy etmək olar".

"Toylar yalnız iki nəfərin ailə qurması ilə bitmir. Burada cehizlərin alınması, ticarət, nəqliyyat, logistika, ərzaq, kənd təsərrüfatı,yeyinti sənayesi, musiqi, zərgərlik, geyim və s. baxımından iqtisadi sahədir. Toyları həmçinin, virtual formada da etmək olar. Lakin bu, Azərbaycan üçün bir az qəribədir. Bəlkə də, insanlar onlayn dərsə alışan kimi, zamanla onlayn toya da fərqli baxış bucağından baxar".

*Ayşən Vəli*

## Teatrlar açılır?



**"Xüsusi karantin qaydalarının ən çox təsir etdiyi sahələrdən biri də teatrlardır. Teatrların nə vaxt açılacağı ilə bağlı heç bir məlumat yoxdur. Bununla belə, teatrlarımız var ki, onlar öz fəaliyyətlərini virtual olaraq davam etdirir". Bu haqda SİA-ya açıqlamasında Akademik Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı deyib.**

Onun sözlərinə görə, ötən ilin mart ayından etibarən, ölkədə karantin rejimi tətbiq olundu və bütün teatr müəsissələri kimi Akademik Milli Dram Teatrı da öz fəaliyyətini dayandırdı: "Ona görə də, teatr rəhbərliyi qərara aldı ki, teatrın özfəaliyyətini virtual, onlayn olaraq davam etdirsin. Bizim teatrın repertuarında olan tamaşalar çəkilmiş və arxivdə saxlanılmışdır. Həmin tamaşalar ayda təxminən, 20-25 tamaşa olmaqla onlayn şəkildə nümayiş olundu. Bu müddət ərzində yeni, artıq 1 ildən artıqdır ki, hər ay orta hesabla 20-22 tamaşa nümayiş olunub, bu da deməkdir ki, 200 tamaşa onlayn nümayiş olunub. Statistikalar göstərir ki, bu tamaşalar təkcə Azərbaycan daxilində deyil, eyni zamanda qonşu ölkələrdə, digər Avropa ölkələrində də baxış sayı alıb. Teatr rəhbərliyi qərara aldı ki, rus və ingilis dillərində subtitrlarla nümayiş olunsun. Bu tamaşalar təkcə cari repertuarda olan tamaşalar deyildi, eyni zamanda, illər əvvəl premyerası keçirilən, insanlar tərəfindən çox maraqla qarşılanan, yaddaşlarda qalan tamaşalar olub, hansı ki 20 il əvvəl premyerası olub cari repertuarda oynanılmır, onlarla bağlı da nümayişlər olundu.

Nümunə olaraq göstərə bilərik ki, "Hamlet", "Özümüzü kəsən qılınc", "Messenat", "Kaş araba aşmayaydı", "Natəvan" və s. kimi çoxlu tamaşalar var ki, onları nümayiş etdirdik. Müşahidələr göstərdi ki, onlar tamaşaçılar tərəfindən maraqla qarşılanır. Hazırda biz hər ay virtual repertuarımızı "Facebook", "Youtube", teatrın saytı üzərindən açıqlayırıq. Əgər proses bu şəkildə davam edəcəksə, Operativ Qərargah teatr müəssisələri ilə bağlı qərarı hələ də qüvvədə saxlayacaqsa, biz öz fəaliyyətimizi də bu şəkildə davam etdirəcik. Ancaq arzu edir və inanırıq ki, tezliklə koronavirusla bağlı problemlər başa çatacaq və akademik milli dram teatrı da öz qapılarını tamaşaçılarının üzünə aça biləcək. Çünki bizim çoxlu planlarımız var - festivallarımız, səyahət qastrollarımız, iri premyeralarımız olmalıdı, ona görə də, arzu edirik ki, biz yeni mövsümdən tamaşaçılarımızı qəbul edə bilək".

*Nərmin Hüseynova*

# Balacaboylunun idarə edəcəyi "böyük Ermənistan"?...

**Hər şeydən əvvəl bildirək ki, ermənilərin "gələcək baş naziri olmağa hazırlaşan" Serj Sarkisyan hazırda Ermənistanı dilənçi gününə salmış Paşinyan rejiminə qarşı mübarizənin səngərində yanında olmaq istəyənlərin hamısının səy və dəstəyini qiymətləndirməyə hazır olduğunu bildirib. Belə görünür ki, bunun üçün onun "əsası" da var. Robert Koçaryandan əskik bir "erməni kişisinin" (?) oğlu deyil ki... Hə, indi nə olar ki, boyu bir balaca Robertin boyundan balacadı... Koçaryan ermənilərin qabağına çıxıb özünü öyüb, gələcək mifik planları barədə yalanlar uydurursa, bəs, onda Sarkisyan niyə "ağzına su alıb" oturmalıdır?**

...Beləliklə, indi də "meydan" Serj Sarkisyanındır. Doğrudur, "meydan" seçici sarıdan bir az kasad olsa da, amma şübhə etmirəm ki, Sarkisyanın bu çıxışından sonra ermənilər Serj barədə bir-birlərini məlumatlandıracaqlar deyə, növbəti "meydan" "dolub-daşacaq".



Burada onu da deyim ki, "nə qədər ağır olsa da", Sarkisyan ilk nitqinə "kədərli" bir xəbərlə başlayır: "Artıq bu günlərdə bir ay olacaq ki, Azərbaycan bölmələri bizim "suveren ərazimizdədir. Onlar hər gün bizim hərbçilərimizlə yanaşı, çoban-çoluğumuzu da qoyun kimi qabaqlarına qatıb aparırlar.

Düşünürəm ki, belə davam edərsə, bizə nə ölkədə, nə də xaricdə heç kim hörmət etməyəcək. Belə ki, bizi kimsənin belə hesablamaq istəmədiyi hiyləgər bir millət və dövlət kimi, qəbul edəcəklər".

Deyim ki, əgər, doğrudan da, dünya əsil həqiqəti etiraf edib, erməniləri hiyləgər bir millət və dövlət kimi tanıyardısa... "inanın" ki, bu "mədəni və əzabkeş" bir xalqa qarşı "edilmiş" ən böyük haqsızlıq olardı.

Elə, Sarkisyanın da dediyi budur ki, ey mənim "haqsevər xalqım", bu qədər məyus və laqeyd olmayın. Bu, sizin səhhətinizə ziyan vura bilər. Hazırda mənim rəhbərlik etdiyim Ermənistan Respublikaçılar partiyası sizləri seçim edərkən səhvə yol verməməyə çağırır. Məncə sizin normal bir insana borcunuzu verməyiniz elə sizin üçün də şərəf və ləyaqət məsələsidir.

Sizi deyə bilmərəm, amma mən Sarkisyanın "normal bir insan" deyərkən, onun özünü nəzərdə tutduğunu düşünürəm. Əslində, mən buna şübhə də etmirəm.

Sarkisyanın sözlərinə görə, mövcud Paşinyan hökuməti yalnız xalqı parçalamaq və zəiflətmək istiqamətində uğur qazana bilib, müharibəni biabırcasına uduzub. Halbuki, "qalib" də gələ bilərdik. Bunu təkcə mən demirəm, baxın bizim hörmətli generalımaz Yuri Xaçaturov da "təsdiq edir". Nə qədər olmaya, generaldı, hərb sənətini gözəl bilir. O gün o mənimlə söhbət zamanı deyir ki, Serjik, əgər sən hakimiyyətdə qalsaydın, biz bu müharibəni yüz faiz qazanardıq. Təbii ki, o mənim nələrə "qadir olduğumu" yaxşı bilir.

Sarkisyanın dediyindən belə başa düşülür ki, hakimiyyətdə olduğu ərəfədə heç bir erməninin xətrinə belə dəyməyib. Dediyinə görə, o, həmişə ölkə daxilində həmrəylik və birliyi təmin etməyə çalışıb: "Mən heç vaxt Nikol kimi, ağı-qaraya və ya qaranı-ağa bölməmişəm. Elə ona görə də, vətənin gələcəyi uğrunda mübarizəni sona çatdırmağa hazıram. Mənim necə bir humanist insan olduğumu da sizin yadınıza salmaq istəyirəm. Yadınızda olar, o vaxt vəzifə üçün "əldən gedən" Nikol çarxa düşmüş məndən, müvəqqəti də olsa, yerimə keçib baş nazir olmaq istədiyini deyəndə, əvvəl imtina etdim. Amma sizinlə bərabər elə məndə də olan "erməni humanizmi" güc gəldi deyə, Nikoldan imtina edə bilmədim. Amma indi mən Nikolun necə də bir yarıtmaz olduğunu görürəm".

...Bu arada, erməni xalqına güvəndiyini, xalqın da ona etimad göstərəcəyinə "əmin" olduğunu bildirən Sarkisyan, dünyanın elə əvvəldən balacaboylular tərəfindən idarə edildiyini də seçicilərinə xatırladıb.

*Ağasəf Babayev*

---

# "Ermənistanda vətəndaş müharibəsi baş verəcək"



**"Ermənistanda iyun ayında keçirilməsi nəzərdə tutulmuş seçkilərin gərgin keçəcəyini əvvəldən proqnozlaşdırmaq olar. Çünki Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsindən sonra Ermənistanda bütün sahələrdə o cümlədən siyasi münasibətlərdə çox dərin böhran hökm sürür". Bunu millət vəkili Cavid Osmanov SİA-ya açıqlamasında bildirib.**

Onun sözlərinə görə, əsas qarşıdurma Paşinyan və bundan əvvəlki xunta rejimi rəhbərləri arasında gedir: "Tərəflər arasında qarşılıqlı ittihamlar gərgin xarakter daşıyır. Ermənistanda seçkilər yaxınlaşdıqca hər iki tərəf, bir-birlərini dövlətə xəyanət etməkdə günahlandırırlar. Bununla çalışırlar ki, seçkilərdə önə keçsinlər. Bu baxımdan demək olar ki, Ermənistan vətəndaş qarşıdurması astanasındadır. Əlbəttə, Ermənistan hakimiyyətinin siyasətinin mərkəzində hər zaman terrorizm siyasəti dayanıb. Terror Ermənistanın dövlət siyasətidir. Bu siyasətin nəticəsidir ki, Ermənistan dövlət səviyyəsində Azərbaycana və Türkiyəyə qarşı çoxsaylı terror aktları həyat keçirir".

"Sizcə, vətəndaş müharibəsi ilə müşahidə olunacaq seçkilərdən qalib kim çıxacaq" sualına cavab olaraq Cavid Osmanov bildirdi ki, Ermənistanda vəziyyət son dərəcə anormal xarakter daşıdığından kimin qalib gələcəyini proqnozlaşdırmaq çətindir: "Terrorçu dövlətin baş bilənləri bir-birini qarşılıqlı şəkildə ittiham etməklə çalışırlar ki, erməni toplumunun rəğbətini qazansın. Hər iki tərəfində ətrafında yetəri qədər elektorat olmadığından indiki mərhələdə yalnız və yalnız qarşılıqlı ittiham və hər hansı bir terror gözləmək mümkündür".

*Gülyana*

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Necə olur, minalara yalnız azərbaycanlılar düşürlər?

**Ermənistanın Qarabağı və ətraf rayonlarımızı 30 il boyunca işğalda saxladığı müddətdə paralel olaraq ərazilərimizdə kütləvi minalanma işlərini aparması nəinki müharibədə, eləcə də atəşkəs müddətində sıravi vətəndaşlarımızın, jurnalistlərimizin, hərbçilərimizin ölümləri ilə müşahidə olunmaqdadır. Ancaq bu məsələ haqqında düşünərkən, istər-istəməz digər bir sual yaranır: yüzminlərlə minaların ərazilərə yerləşdirilməsi prosesini Ermənistan təkbaşınamı aparıb? Yaxud, Ermənistan o qədər imkanlara malikdir ki, bu qədər minaları torpaqlarımızda hər addımbaşı basdırıb? Əslində, biz belə qənaətə də gələ bilərik - ermənilər bu mənfur prosesdə iştirakçı olsalar da, həm də faydalananlardandırlar. Yəni ermənilərin heç vaxt - nə birinci Qarabağ müharibəsində, nə də ikinci Qarabağ savaşında elə bir potensialları olmayıb ki, bu nəhəngliyində ərazilərdə kütləvi minalanma işləri aparsın.**

Sirr deyil və bəllidir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq və təcavüzkar siyasətində bu ölkəyə ya açıq, ya da gizli dəstəklər göstərən siyasi və hərbi dairələr hər zaman mövcud olub. Biz zaman-zaman işğalçılara göstərilən bu dəstəkləri istər ABŞ-dan, istər Fransadan, istərsə də Rusiyadan dəfələrlə görmüşük - həm külli miqdarda maddi vəsaitlər ayırmaqla, həm də silah-sursat və s. dəstəklər daim olub, bu gün də proses davam edir.

Əslində, həm də belə bir iddia ilə çıxış edərsək ki, Qarabağın minalanmış ərazilərinin xəritələri Ermənistanda mövcuddursa, həmin xəritələrinin digər nüsxələrinin bu ölkəyə yardımlar etmiş digər ölkələrdə olması ehtimalları da arta bilər, yəni bütün tərəflərdə minalanmış sahələrin xəritələri ola bilər. Ona görə də adekvat sual yaranır - axı necə olur ki, minalara yalnız Azərbaycan vətəndaşları düşür..?

Yaxud, məsələyə digər kontekstdən yanaşaq. Misal üçün, regionda yüzlərlə Rusiya sülhməramlısı var, onlarda yalnız bir dəfə 23 noyabr 2020-ci ildə özü də yenə də Azərbaycanın nəzarət etdiyi ərazidə (Füzuli ərazisində) minaya düşən olmuşdu. Amma nədənsə, sülhməramlılar ermənilərin nəzarəti olan ərazilərdə minalara düşmürlər (?). Demək, belə bir mümkün ehtimalla da çıxış etmək olar ki, ermənilər özlərinin terrorçuluq xislətlərini icra etmək üçün diversantlarını ərazilərimizə göndərirlər. Habelə, Rusiya sülhməramlıları nəzarət etdikləri ərazilərimizə daxil olarkən, məsələn, Azərbaycan Rusiyanın xahişi əsasında Kəlbəcər və s. rayonlarımızda qanunsuz yaşayan ermənilərin çıxışlarına əlavə 10 gün vaxt verərkən, onlar digər bədniyyətli əməlləri ilə yanaşı, həm də bu ərazilərdə yüzlərlə minalar basdırıblar. Əbəs deyil ki, bunu elə erməni terrorçularından biri olan polkovnik açıq-aydın bəyan etdi. Dedi ki, 17 Kamaz yük maşını ilə doldurulmuş minaları həmin müddətdə Azərbaycan ərazilərinə basdırıblar. Maraqlıdır, onda Rusiya sülhməramlıları hara baxırdılar? Çünki bu iddiadan sonra heç bir rəsmi təkzib belə verilmədi!

Beləliklə, erməni terrorçu diversantları qanunsuz halda ərazilərimizə keçir, üstəlik, qeyri-qanuni olaraq Ermənistanın rəsmiləri, həmçinin xarici dairələr də Laçın dəhlizindən Xankəndiyə gedirlər, fəqət minaya düşmürlər...

Nəticə nədir, mina xəritələri hamıda var, bizdən başqa! Bəs niyə xəritələri vermirlər? Məqsəd bizim əhalini ora qayıtmaqdan çəkindirmək, qorxutmaq və (!) minaların xəritəsindən Azərbaycan yeni təzyiq vasitəsi kimi istifadə etmək.

Özü də bu, birbaşa Azərbaycan dövlətinin və xalqının əleyhinə yönəlmiş bir təxribatçılıq aksiyasıdır. Jurnalistlərimizlə bağlı yaşanan son faciədən sonra ölkə daxilindəki satqınların, xainlərin, Avropada oturan "divan siyasətçilərinin" dərhal ölkə rəhbərliyimizi günahlandırmaları onu göstərir ki, xarici qüvvələr öz hərəkətlərini daxili xəyanətkarlarla razılaşdırırlar!

Bu arada, müəyyən məlumatları da bölüşmək olar. Minaların etibarlıq müddəti təxminən 40 il təşkil edir. On ildən sonra 4%-i sıradan çıxır. 15 ildən sonra bu rəqəm ən azı 7 % təşkil edir. 30 ildən sonra isə əksər minaların fitilləri sıradan çıxır və minalar daha təhlükəli olur, belə ki artıq onlar ümumiyyətlə müdaxiləyə tabe olmurlar və hər an işə salına bilərlər. Qarabağ ərazisində basdırılan minaların əksəriyyəti təxminən elə 30 il bundan əvvəl basdırılıb bu da həmin minaların etibarlılıq müddətinin başa çatması ilə əlaqədar olaraq onları daha da təhlükəli edir, xüsusən də minatəmizləyən heyət üçün.

Lakin eyni zamanda, son müharibə zamanı tələsik qeyri planlı şəkildə minlərlə yeni minalar basdırılıb ki, onlar da vəziyyəti daha da mürəkkəbləşdirib. Onu da vurğulamaq lazımdır ki, Azərbaycanın daimi fəal iştirak etdiyi BMT-nin 1997-ci ildən xüsusi minaların təmizlənməsi xidməti fəaliyyət göstərir - United Nations Mine Action Service (UNMAS). Lakin Azərbaycanın bu xidmətə müraciət edib-etmədiyi haqqında təşkilatın aşağıdakı veb səhifəsində hər hansı bir məlumat yoxdur.

https://www.unmas.org/en/unmas/leadership

Ümumiləşdirərək demək olar ki, döyüş meydanında hərbi qüdrətimizə, gücümüzə davam gətirə bilməyən daxili və xarici düşmənlərimiz təxribat meydanında bizə qarşı birləşiblər. Düzdür, Azərbaycan humanitar addım atarak, yenə də Rusiyanın xahişi əsasında Ermənistana öz ərazisindən enerji verdi. Amma biz ermənilərə humanitar davrandığımız bir zamanda ermənilər minaları xəritələrini bilərəkdən verməməklə alçaq əməllərini davam edirlər. Bu əməllərin cavabını isə vermək zamanı çatıb.

# 15 İyun Azərbaycan dövlətçiliyinin qurtuluş tarixidir

Sirr deyil ki, hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu mənada, Ulu Öndər Heydər Əliyev də Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal lider kimi xalqımızın qəlbində yaşayır. Belə ki, hələ sağlığında Ümummilli Lider zirvəsinə ucalmış Ulu Öndər Heydər Əliyev böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Bu gün Onun 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar.




Ulu öndər Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan xaos, anarxiya və tənəzzüldən xilas olaraq tərəqqi yoluna qə-



***RAMİZ ŞABANOV,***
***YAP Tərtər rayon təşkilatının sədri***

dəm qoydu. Şübhəsiz ki, müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə heç də asan yolla çatmayıb.

Yaxşı məlumdur ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə - 1993-cü ilin 15 iyun tarixində siyasi hakimiyyətə gəlişi, nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Bu, həqiqətən də bir qurtuluş idi. 1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edirdi ki, Ulu Öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. Hakimiyyətdə olan AXC-Müsavat iqtidarının səriştəsizliyi, xalqı deyil, yalnız öz mənfəətlərini güdmələri, hər şeyi - ləyaqəti, şərəfi, vicdanı pula satmağı sonda Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qoydu. Talanmış dövlət büdcəsi iqtisadiyyatı çökdürmüş, daxili və xarici qüvvələr isə artıq separatçılıq vasitələri ilə ölkəni bölən "xəritələrini" hazırlamışdılar. Qarabağ cəbhəsində isə torpaqlarımız ard-arda erməni işğalçılarına peşkəş edilirdi. Azərbaycan xalqı dövlətçiliyini itirmək təhlükəsi fonunda fəlakətlər, tüğyanlar burulğanında məhv olmaq üzrə idi. Bütün bunlardan isə çıxış yolu tapmaq lazım idi. Xalqın Fenomen liderə ehtiyacı var idi və O, HEYDƏR ƏLİYEV idi!

Belə bir ağır məqamda Azərbaycan hakimiyyəti vəziyyətin daha da kritikləşməsinə yol açan məntiqsiz qərarlar verməkdə davam edir, ölkəni, demək olar ki, zorla vətəndaş qarşıdurmasına sürükləyirdi. 1993-cü il iyunun 4-də sabiq korpus komandiri, AXC hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi və Gəncədə yerləşən 709-cu briqadanın ləğvi ilə bağlı əmr imzalandı. O zamankı müdafiə naziri Dadaş Rzayevin imzaladığı bu əmrə və təhvil-təslim barədə qərara tabe olmayan Surət Hüseynov isə tabeçiliyində olan hərbi hissənin əsgərlərinin Bakıya doğru istiqamət götürməsi əmrini verdi. 709-cu briqadanı tərksilah etmək üçün Gəncəyə göndərilən Milli Qvardiya hissələri ilə Surət Hüseynovun rəhbərliyi altında olan silahlı birlik arasında döyüş oldu. Artıq ölkə vətəndaş müharibəsinin astanasında idi. Məhz belə bir çətin zamanda xalqın diqqəti Naxçıvana yönəlmişdi. Çünki düşmən blokadasında belə muxtar respublikanı qorumağı bacaran, Azərbaycanın xilaskarı Heydər Əliyev dövlətin yeganə nicat yolu idi. Ona görə də Vətənin bu ağır günündə xalq Azərbaycanın görkəmli oğlu Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev xalqın və respublikanın o zamankı hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi, çox az zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.

## Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsi olan müstəqil Azərbaycan dövləti

Sonralar Ulu Öndər bu məsələ ilə bağlı bildirirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Ulu Öndər Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarıdır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Vətəndaş cəmiyyəti institutlarının hələ formalaşmadığı, üstəlik, xarici işğala məruz qalan ölkəni yalnız və yalnız Ümummilli Liderimiz Heydər Əliyev xilas edə bilərdi və etdi də. Bu gün Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin inkişafı millət-dövlət tandeminin üzərində qurulduğu üçün sarsılmazdır.

Bu mənada, onu da vurğulamaq istərdim ki, Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanı daimi müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Ulu Öndər Heydər Əliyev milli dövləti idarə etməyin beynəlxalq siyasi sistemlə ideal bağlılığını tapa bilən müstəsna siyasət ustalarındandır. Onun Azərbaycan dövlətçiliyi praktikasındakı bu nailiyyəti, formalaşdırdığı siyasi idarəetmə sistemində bu qaynaq məqamının tapılması - onun siyasi kursunun uğurla davam etdirilməsinin ən başlıca reallıqlarındandır.

## Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı - Qalib Lider İlham Əliyev

Azərbaycanda siyasi hakimiyyətin Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi, möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən təsdiqini tapmış belə bir həqiqəti dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hamıdan yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün Liderini - İLHAM ƏLİYEVİ yetişdirməsi olmuşdur.

Məhz Ulu Öndər Heydər Əliyevin siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı "dəmir yumruq" siyasəti 30 il düşmən əsarətində olan torpaqlarımız 44 gün davam edən İkinci Vətən Müharibəsini Qələbə zəfəri ilə başa vurdu, ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət qalib gəldi. Məhz Ulu Öndər Heydər Əliyevin yenidən ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz əbədi oldu və bu gün Azərbaycan 103 illiyini qeyd etdiyimiz Cümhuriyyətimizin taleyini yaşamadı. Azərbaycanın tarixinə Zəfər Gününün yazılması bu yolun uğurlu davamının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirdiyinin təqdimatıdır. Dövlət başçısı 8 noyabrda Qarabağın döyünən ürəyi, musiqi beşiyimiz Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqımıza çatdırarkən bildirmişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

---

# "Əli və onun kimilər dövlət əleyhinə addımlar atırlar"

**"Məşhur bir deyim var: Nə ilə, Əliş? Adam bu qədər millətini, dövlətini ayaqlar altına atmaq düşüncəsi ilə yaşayırsa, deməli onun qanı xarabdır. Məncə, Əlinin də, Osmanqızının da qanlarından analiz götürüb, əkdirməyə və ən incəliyinə qədər genlərini müəyyənləşdirməyə ehtiyac var". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, bu gün bütün dünya Azərbaycan hakimiyyətinin qüdrətindən, xalqı idarə edə bilmə bacarığından, xalqın arzularının reallaşması yolunda uğurlu strategiyasından, ən başlıcası son üç yüz ildə xalqa, həsrət qaldığı tarixi zəfər bəxş etməsindən danışır: "Sevənlər sevinərək, sevməyənlər içindəki yanğını müxtəlif yollarla boşaldaraq bunları etiraf etməli olurlar. O zaman sual olunur, Əli, sən nə istəyirsən? Məğlub durumda inləyən dövlət? Vətəndaşları səfalət içində yaşayan ölkə? İqtisadiyyatı ilbəil geriləyən məmləkət? Məncə, bu sualların cavabı hər kəsə aydındır. Ölkə inkişaf etdikcə, ölkənin qüdrəti, beynəlxalq aləmdə nüfuzu artdıqca, siyasi mövqeyindən asılı olmayaraq hər bir vətəndaş bundan qürur hissi keçirməlidir. Əli və onun kimilər isə əksinə, bütün bunlardan narahatçılıq keçirirlər və həyasızcasına da antidövlət addımlar atırlar. Bu da birmənalı şəkildə onu deməyə əsas ve-



rir ki, Əli və əlikimilər dünyada Azərbaycan və türk dünyası əleyhinə olan qüvvələrin vassallarına çevriliblər. Əminəm ki, istənilən xaos yaratma cəhdi hakimiyyətdən də əvvəl xalqın özü tərəfindən dəf ediləcək. Əvvəllər olduğu kimi, yenə meydana gələn 5-10 nəfər pulla tutulmuş adamlar da onları yarı yolda qoyub qaçacaqlar. Çünki xalq kifayət qədər yetkin, ağı qaradan seçə bilən xalqdır. Bu qədər tarixi uğurlara imza atan indiki iqtidarı görməzdən gəlib, boş vədlərin ardınca düşən millət ötən əsrin 90-cı illərdə qalıb. Təəssüf ki, bunların təfəkkürləri də hələ həmin illərin eyforiyasının girdabındadır. Allah ağıl versin, İnşaallah. AMİN!".

***Gülyanə***

# Əli Kərimlinin şantajçı iç üzü

**“Yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir” zərb-məsəli müdrik Nizami Gəncəvinin iki əks qütbdə dayanan “Xeyir və Şər”inin mübarizəsi ilə eyniləşdirib. Bütün sınaqlarda böyük xeyirxahlıq nümayiş etdirən “Xeyir”in, sonda qazanmış olduğu parlaq qələbəsinin fövqündə “Şər”in rəzil ölümü, əslində, əbədi həqiqətin mütləq təntənəsinin təzahürü idi.**

Bu gün radikal müxalifət düşərgəsində dünyada və ölkə daxilində gedən siyasi proseslərə hələ də “eksperiment” kimi yanaşan, “imkanları ilə iddialar” tərs mütənasiblik təşkil edən, real situasiyanı dəyərləndirə bilməyən, hətta ciddilikdən uzaq olan insanlar yox, viruslar var. Bu, o viruslardır ki, öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində quraraq ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə və ölkənin beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar. Ancaq unudurlar ki, “ənənəvi müxalifətçilik” - populizm, radikallıq, dağıdıcılıq, qaragüruhçuluq, qisasçılıq kimi naqis cəhətlərlə ictimaiyyətin diqqətini cəlb etməyə çalışmaq mərhələsi Azərbaycan siyasəti üçün aktuallığını tamamilə itirib. Və xarici havadarlarının maliyyə dəstəyi ilə istənilən yola baş vurmağa, iğtişaşlar törətməyə hazır olan bu ifrat radikal dairələrin iç üzünü artıq xalq yaxşı tanıyır. Həmin radikal düşərgənin əsas “oyunçular”ından biri olan AXCP sədri Əli Kərimlinin son vaxtlar siyasi “fəalılığını artırması da partiya rəhbərinin xaricdən yeni “əmr” aldığını bir daha təsdiqləyir. Aparılan təhlillər göstərir ki, təşkilat daxilində demokratiya yarada bilməyən, qarşıdurmalar, intriqalar törədərək bundan öz maraqları naminə istifadə edən partiya sədrinin arxasınca heç kim getmir.



## Əli Kərimli həqiqət hər zaman yalan üzərində qələbə çalıb

Ancaq bu dəfələrlə sübut olunsa da, Əli Kərimli kimi satqın, şantajçı viruslar bunu anlamaq imkanında deyil. Bu gün xalq-iqtidar birliyi hər bir sahədə özünü göstərir. Bu gün xalq-iqtidar birliyini, Azərbaycan dövlətinin diplomatik “Dəmir yumruq” siyasəti nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 il əsarətdə saxlayan, “Böyük Ermənistan” xülyasına, “24 aprel” stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi. Bu, Azərbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çaldı. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbəsidir. Və bu qələbədə bütün şəhidlərimizin, Xocalı soyqırımı, 31 mart soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Beləliklə, bir daha bütün dünya Azərbaycanın illər boyu haqq yolunda olduğunun şahidi oldu. Çünki haqqın tapdandığını görüb, onu müdafiə etməmək xəyanətdir, deyib ulu babalarımız. Bu gün Azərbaycan dövləti məhz bu haqq yolunda qürurla, inamla, vüsətlə, şərəflə və ləyaqətlə addımlayır. Əlbəttə ki, bu addımların altında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı bu günədək törədilən soyqırımı, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü siyasəti əzilib, əziləcək. Və bir daha yalanın qısa ömürlü, həqiqətin əbədi olduğunu göstərə bildi.

## Haqq nazilər, amma üzülməz

Belə olan halda, AXCP sədri Əli Kərimli öz Facebook səhifəsində Azərbaycanın uğurlarını görən gözü niyə kor, eşidən qulağı kardır? Baxın, Bakıda keçirilən “Formula-1” yarışlarını “zülmdür”, kimlərinsə pul qazanması, hakimiyyətin təbliği üçün vasitədir”,-yazır. Sən demə, dünyada idman yarışları sırasında populyarlığına görə üçüncü sırada yerləşən “Formula-1” səbəbindən avtomobillərin şəhərin mərkəzində hərəkətinin məhdudlaşdırılması insanların “əsəbini tarıma çəkir”.

Bax, budur özünün “siyasətçi” adlandıran bədbəxt partiyanın rəzil sədrinin “düşüncəsi”. Və bir daha Əli Kərimlinin müxalifətçilik missiyasının əsl mahiyyətini başa düşməməsi və anlamaması, doğrudan da, bədbəxtçilikdir. Budur, satqın Əli Kərimlinin hər şeyi qara rəngdə, öz siyasi maraqlarına uyğun təsvir etməsi.

Anlamır ki, “Formula-1” onlarla ölkədə nümayiş etdirilir, bütün dünyada 500 milyonluq izləyici auditoriyasına malikdir. Deməli, yarım milyard insan Bakı şəhərinin müasir görünüşünü seyr edir, paytaxtımızla vizual tanış olur. Təbii ki, ildən-ilə ölkəmizə gələn turistlərin sayının artmasında bu yarışmanın böyük payı vardır. Həmçinin, yarışmanı maraqla izləyən on minlərlə vətəndaşımız da bu idman bayramından böyük zövq alır və heç də müvəqqəti tıxac haqqında düşünmür. Statistika göstərir ki, 2018-ci ildə “Formula-1” Azərbaycan Qran Prisində ümumilikdə 94 min tamaşaçı iştirak edib.

## “Formula-1” həm də dövlətin nüfuzunun göstəricisi, qürur mənbəyidir

“Formula-1” həm də dövlətin nüfuzunun, prestijinin göstəricisi, qürur mənbəyidir. Dünyada bu miqyasda tədbirlərə ev sahibliyi edə biləcək dövlətlərin sayı heç də çox deyil. Bunun üçün lazımi infrastruktura, çevik qərarlar qəbul edib həyata keçirmək əzminə, təhlükəsizliyi təmin etmək qüdrətinə malik olmaq gərəkdir. Azərbaycan isə ard-arda Avropa oyunlarının keçirildiyi ilk ölkə olmaqla, IV İslam Həmrəyliyi Oyunlarına, çoxsaylı müxtəlif idman növləri ilə bağlı beynəlxalq yarışlara ev sahibliyi etməklə kifayət qədər böyük kütləvi tədbirləri təşkil etməyə, təhlükəsiz şəraitdə keçirməyə hazır olduğunu nümayiş etdirib.

